

**MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR, DAİMİDİR, DÖNMƏZDİR!**

# HƏRBİ AND

№ 14 (1023) 26 aprel 2024-cü il Həftəlik ictimai-siyasi qəzet (Qəzet 15 noyabr 2002-ci ildən nəşr olunur) Qiyməti: 50 qəpik

# Prezident İlham Əliyev və Prezident Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər



**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.**

Səh 3

# Azərbaycan Ordusunda komanda-qərargah təlimləri keçirilir



2024-cü ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunda hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanması məqsədilə keçirilən təlimlər davam etdirilir.

Təlimlərə cəlb edilən hərbi hissələrin bölmələri həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edərək cəmləşmə rayonlarında tərtibləniblər.

Müdafiə Nazirliyinin rəhbər heyəti ümumqoşun təlim mərkəzlərində keçirilən komanda-qərargah təlimlərinin gedişatını izləyib.

Səh. 2

**Aprel çağırışı yekunlaşır**



Səh. 2

**COP29-da Ermənistanın yüksək səviyyəli nümayəndə heyətinin iştirakı mümkündür**



Səh. 4

**"Çox arzulayardım ki, Azərbaycanda hərbi vətənpərvərlik düşərgələri fəaliyyətə başlasın"**



Səh. 6

**Hüquqi dövlətin əsas şərtlərindən biri vətəndaş cəmiyyətinin olmasıdır - Zaur İBRAHİMLİ**



Səh. 7

**İranın "qırmızı xətləri" haradadır?**



Səh. 15

# Aprel çağırışı yekunlaşır



**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatında müddətli həqiqi hərbi xidmətə aprel çağırışının yekunları ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.**

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimovun sədrliyi ilə keçirilmiş iclasda Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncamının icra vəziyyəti müzakirə olunub.

Dövlət Xidməti tərəfindən 2024-cü ilin aprel çağırışının uğurla icra edilməsi və Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə zəruri işlərin görüldüyü diqqətə çatdırılıb.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Azərbaycan Ordusunda komanda-qərargah təlimləri keçirilir

**2024-cü ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunda hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanması məqsədilə keçirilən təlimlər davam etdirilir.**

Təlimlərə cəlb edilən hərbi hissələrin bölmələri həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edərək cəmləşmə rayonlarında tərtibləniblər.

Müdafiə Nazirliyinin rəhbər heyəti ümumqoşun təlim mərkəzlərində keçirilən komanda-qərargah təlimlərinin gedişatını izləyib.

Səhra şəraitində açılan komanda idarəetmə məntəqəsinə gələn general-polkovnik Z.Həsənov əməliyyatların aparılması zamanı komandir və qərargah zabitlərinin xəritə üzərində qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Bildirilib ki, keçirilən təlimdə əsas diqqət komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının, qərargahların qarşılıqlı fəaliyyətinin, eləcə də onların mürəkkəb şəraitlərdə döyüş tapşırıqlarını idarəetmə qabiliyyətlərinin daha da təkmilləşdirilməsinə yönəldilib.



General-polkovnik Z.Həsənov təlimin gedişatını müsbət qiymətləndirib və döyüş hazırlığı tədbirlərinin müasir döyüş aparma üsulları nəzərə alınmaqla, daha keyfiyyətli keçirilməsi ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

# Dövlət Xidməti Şamaxıda maarifləndirici tədbir keçirib



**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən Şamaxı rayonunda İcra Hakimiyyətinin dəstəyi ilə gənclər üçün zərərli vərdişlərin fəsadlarına həsr edilmiş konfrans keçirilib.**

Tədbirdə Dövlət Xidmətinin əməkdaşları ilə yanaşı Şamaxı Rayon İcra Hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları və bir sıra dövlət qurumlarının məsul şəxsləri iştirak edib.

Mərasimdə çıxış edən SHXÇDX-nin Çağırışaqədərki hazırlıq idarəsinin rəisi polkovnik-leytenant Füzuli İsmayılov gənclər arasında zərərli vərdişlərin yayılmasının qarşısının alınması məqsədilə görülən işlər barədə danışıb. Yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, onların həyat üçün zərərli olan adətlərdən uzaqlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının zəruriliyini vurğulayıb. Həmçinin sabahın əsgəri olacaq çağırışçıların fiziki və psixoloji statuslarına müəyyənedici təsir göstərən sağlamlıq meyarlarının yüksək səviyyədə saxlanılmasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu bildirib.

Görüşdə iştirak edən Vətən Müharibəsi Qəhrəmanı polkovnik Raqif İsrayılov 44 günlük Vətən Müharibəsi ilə bağlı xatirələrini bölüşüb, gənclərə dəyərli tövsiyələrini çatdırıb.

Qeyd edək ki, analoji tədbir əvvəlki aylarda ölkənin bir sıra rayonlarında təşkil edilib və gələcək aylarda digər yerlərdə də keçirilməsi planlaşdırılır.



# Dövlət Xidməti məktəblini təltif etdi

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən Bakı şəhəri, Sabunçu rayonunda yerləşən 67 saylı tam orta məktəbdə tədbir keçirilib. Tədbirdə SHXÇDX-nin Çağırışaqədərki hazırlıq idarəsinin rəisi polkovnik-leytenant Füzuli İsmayılov, İctimaiyyətlə iş və beynəlxalq əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov, Xidmətin Sabunçu rayon idarəsinin rəisi polkovnik-leytenant Nicat Həsənov, məktəbin direktoru İradə Bayramova və məktəbin kollektivi iştirak edib.**

Məktəbin yuxarı sinif şagirdlərinin də iştirak etdiyi tədbiri keçirməkdə məqsəd “Şahinlər” hərbi-idman oyunlarında həmin məktəbi təmsil edən komandanın kapitanı Ayan Həsənovanın AK-74 avtomat silahının sökülüb-yığılmasında xüsusi bacarıq göstərdiyini nəzərə alaraq təltif edilməsi olub. Ayan Həsənovanın avtomat silahını gözü bağlı şəkildə həmyaşıdlarından daha tez söküb, həmçinin yığması sosial şəbəkələrdə geniş müzakirə olunub. Ona bu bacarığına görə Xidmət rəisinin adından fəxri fərman və hədiyyələr təqdim edilib.

Məktəbin çağırışaqədərki hazırlıq rəhbəri, Vətən müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenant Muraz Sadıqov da pedaqoji fəaliyyətində fərqləndiyinə və şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsini yüksək səviyyədə təşkil etdiyinə görə fəxri fərmanla təltif edilib.

Qeyd edək ki, görüş zamanı yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, onların həyat üçün zərərli olan adətlərdən uzaqlaşdırılmasının vacibliyi və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə geniş məlumat verilib.

Təsisçi və Baş redaktor

**Emin HƏSƏNLİ**

Redaktor

**Aytən NAZİMQIZI**

**Ünvan:** AZ1007, Bakı şəhəri, Natiq Şahbazov küçəsi 40

**Telefonlar:** 449-94-05, 449-94-06

**Faks:** 449-94-05

**e-mail:** herbi_and@mail.ru

Qəzet “Hərbi And” qəzetinin bilgisayar mərkəzində yığılıb, səhifələnir və Məmmədov Vüqar Tofiq oğlunun mətbəəsində çap olunur

**Tiraj:** 2070

# Prezident İlham Əliyev və Prezident Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər

### 22 aprel

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də Moskvaya işgüzar səfərə gəlib.

Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.

Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin birgə nahar ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri aprelin 22-də başa çatıb.

### 23 aprel

Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü keçirilib.

Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum keçirilib.

### 24 aprel

Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprelin 24-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qırğızıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarovu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qırğızıstan Prezidentinə raport verdi.

Prezident Sadır Japarov Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qırğız Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Qırğızıstan Prezidentinə, Qırğızıstan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə məhdud tərkibdə görüşü olub.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirilib.



Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak ediblər.

Aprelin 24-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qırğız Respublikasının Prezidenti Sadır Japarovun şərəfinə dövlət ziyafəti verilib.

Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum keçirilib.

### 25 aprel

Azərbaycan Respublikasında dövlət səfərində olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 25-də Füzuli rayonuna gəlib.

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam Konfrans Mərkəzi ilə tanış olublar.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam şəhərində olublar.

Dövlət başçılarına şəhərin Baş planı barədə məlumat verildi.

Bildirildi ki, bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çevirib, şəhəri yerlə-yeksan ediblər. Buna görə Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar.

Məlumat verildi ki, Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Ərazidə dağıntılar olduğu kimi saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyini çatdıracaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək.

Həmçinin qeyd olundu ki, şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam Mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq.

Bildirildi ki, şəhərdə salınacaq Mərkəzi park üçün 5 hektar ərazi ayrılıb. Parkın ərazisi 4 zonaya bölünüb və insanların asudə vaxtlarının səmərəli keçirmələri üçün lazımi şərait yaradılacaq.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov birgə nahar ediblər.

# Qarabağ qazisi Hikmət Məmmədov: “Onlar kim və nə üçün döyüşdüklərini bilmirdilər”




*2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan arasında hərbi münaqişə baş verdi. Nəticədə ermənilər aprel ayının 2-dən 5-dək qoşunların təmas xəttində silahlı təxribatlar törətdi. Təxribatlar zamanı dinc əhaliyə də hücumlar oldu. Bu hadisələr nəticəsində Azərbaycan Ordusu şəhid verdi, həmçinin mülki əhali arasında da ölən və yaralananlar oldu. Həyata keçirilən sürətli əks-həmlə zamanı 2 000 hektardan artıq ərazi azad edildi. Bir çox strateji ərazi nəzarət altına keçdi. Geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli ”Lələ təpə” yüksəkliyi də Azərbaycan Ordusunun nəzarətinə keçdi. Həmçinin Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan (Madaqiz) kəndi istiqamətində yollar düşməndən azad olundu.*

**Aprel döyüşlərinin iştirakçısı, Qarabağ müharibəsi qazisi, ehtiyatda olan kapitan Aprel döyüşləri təəssüratlarını Hikmət Məmmədov Herbiand.az-a danışıb:**

“2016-cı il mart ayının sonlarında düşmənin atəşkəsi pozma halları intevsivləşmişdi. Cəbhəyanı kəndlərimiz atəşə tutulurdu. Həmin zamanlarda artıq mülki vətəndaşlar da şəhid olmuşdu. Artıq düşmənə sarsıdıcı zərbələr endirilməli idi. Biz Ali Baş Komandanın əmrini gözləyirdik. Aprel ayının 1-də gecə saat 11-12 radələrində əks hücum əmri verildi. Həmin gecə əks həmlə baş verdi. Lələtəpə istiqamətində və Talış kəndi ətrafı Talış yüksəklikləri istiqamətində əks həmlə baş verdi. Mənfur düşmən bu istiqamətlərdə darmadağın edildi. Strateji cəhətdən bu yüksəkliklər çox mühüm idi. Aprel döyüşlərinə qədər düşmən bütün cəbhəboyu yüksəklikləri ələ keçirmişdi. Onlar üçün oradan döyüş aparmaq çox asan idi. Elə onlar o istiqamətdən də hücuma keçdi. Açıq-aşkar görünürdü ki, onların məqsədləri bəlli deyildi. Çünki çox qeyri-adi, əlaqəsiz, anlaqsız müqavimət edirdilər. Təbii ki, cavablarını aldılar. Cənab Prezidentin dediyi kimi, onların məqsədləri Bakıya qədər getmək idi, amma Azərbaycan əsgəri onları harda oturtmaq lazımdırsa, orda da oturdu. İsrail istehsalı olan “HAROP” ilk dəfə olaraq 2016-cı ildə aprel döyüşlərində istifadə edildi. Yadınızdadırsa, düşmənin yaşlı təbəqəsi döyüşmək üçün yığışmışdı. O, avtobus yerindəcə yolda məhv edildi. Hətta bu kadrları elə ermənilər özləri çəkmişdi. Bununla yanaşı, həmin video gündəm olmuşdu”.

**Qazimiz qeyd etdi ki, Aprel döyüşləri həqiqətən böyük bir zəfərə apardı:**

“Aprel döyüşlərində bizim azad etdiyimiz yüksəkliklər onu göstərdi ki, biz həmin yüksəkliklərdən düşməni amansızcasına məhv etdik. Düşmənin olduğu mövqenin arxasında onların Maddi Texniki Təminatları olan hərbi hissələri var idi. Həmin hərbi hissədən onlara 4 kamaz yardım gələndə biz onların ikisini anındaca məhv etdik. Bununla da onlara yardım gələn yol bağlandı. Onların qaçmaqdan başqa yolu yox idi. Elə qaçırdılar da. Əlbəttə, orda bir erməni əsgəri belə qalmalı deyildi. Çünki ora bizim əzəli, tarixi torpaqlarımızdır. Bizdə bir post qurulmuşdur ki, vətənpərvər xalqımızın mülki nümayəndələri döyüşməyə gəlməsin. Onlarda isə post qurulmuşdu ki, əsgərlər qaçmasın. Təbii ki, biz haqq savaşında idik. Onlar kim və nə üçün döyüşdüklərini bilmirdilər”.

**Söhbət əsnasında həmsöhbətimiz bildirdi ki, onlar düşünürdülər ki, I Qarabağ savaşında baş verənlər yenə baş verəcək. Çünki bizim ordunu o cür təsəvvür edirdilər. Artıq müasir ordu, müasir silahlar, texnologiya bunu göstərdi ki, Azərbaycan əsgəri o deyil:**

“Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən qısa müddət sonra 1994-cü ildə atəşkəs elan olundu. Ondan sonra bütün diqqət, qayğı yönəldi. Ordunun maddi texniki təminat bazası yaxşılaşdırıldı. Hərbçilərimiz üçün ölkədə və ölkə xaricində genişmiqyaslı təlimlər təşkil olundu. 1994-cü ildən sonra ən böyük toqquşma 2016-cı ildə baş verdi. 1990-cı illərin əvvəlində Qarabağdan qovulan azyaşlı oğullarımız 2016-cı ildə Aprel döyüşlərində və 2020-ci il Vətən müharibəsi zamanı düşmən üzərinə əlində silah tank üzərində getdi. Bu gün çox xoşdur ki, torpaqlarımız işğaldan azad olunub və Azərbaycan Ordusu günü-gündən daha da güclənir. Aprel döyüşləri nəinki düşmənə, hətta bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusunun gücü nə yerdədir”.

***Emin ŞİRVANZADƏ*✍**

# COP29-da Ermənistanın yüksək səviyyəli nümayəndə heyətinin iştirakı mümkündür

**Azərbaycan COP-29-a ev sahibliyi etməsi üçün Ermənistan namizədliyini geri götürərək ölkəmizə öz dəstəyini göstərmişdir. O zaman bu gün COP-29-da Ermənistanın yüksək səviyyəli nümayəndə heyətinin iştirakı maraq doğuran məqamdır.**

**Mövzu ilə əlaqədar Herbiand.az-ın sualını cavablandıran millət vəkili Ceyhun Məmmədov Azərbaycan Ermənistan münasibətlərinin müsbətə doğru irəlilədiyinə diqqət çəkdi:**

“Azərbaycan Ermənistan münasibətləri bu gün yaxşı inkişaf edir. Artıq sərhəddə ciddi işlər gedir. Hesab edirəm ki, bütün bu hadisələrin fonunda və qarşılığında Azərbaycan və Ermənistan arasında münasibətlər daha da dərinləşə bilər. Və biz daha ciddi irəliləyişlər görə bilərik”.

Millət vəkili iki ölkə arasındakı münasibətlərdə yeni bir mərhələnin başlandığını bildirdi:

“Bunun üçün kifayət qədər imkan və potensial var. Və bu bütövlükdə Azərbaycan Ermənistan münasibətlərində yeni bir mərhələnin yaranmasına şərait yaradır. Eyni zamanda bu tədbir zamanı Ermənistanın yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycana səfər etməsini və bu tədbirdə iştirak etməsini istisna etmirəm. Hesab edirəm ki, bu mümkündür və buna kifayət qədər imkanlar mövcuddur”.

***Elnurə İSAXAN*✍**



# Şəhid Milli Qəhrəman Şövqiyar Abdullayevin doğum günü qeyd olundu



**Azərbaycan Hərb Tarixi Muzeyində Birinci Qarabağ müharibəsinin şəhid tank komandiri, Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevin anadan olmasının 55 illiyinə həsr olunmuş anım tədbiri keçirildi.**

Anım tədbirində Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, şəhid Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları, veteran tankçılar, tələbələr və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə anım tədbirində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Cəmil oğlu Abdullayevin həyatı və döyüş yolu" adlı məruzə ilə çıxış etdi. Bildirdi ki, XX əsrin sonlarında yenidən öz tarixi müstəqilliyini qazanan Azərbaycan həm də onun itirilməsi təhlükəsi ilə qarşılaşdı. "Xarici havadarlarının və daşnak tör-töküntülərinin gücünə arxalanan ermənilərin mənfurluğu və nankorluğu nəticəsində ölkəmiz bir-birinin ardınca ağır sınaqlar qarşısında qaldı. Azərbaycanın tarixi torpaqlarına Ermənistanın açıq ərazi iddiaları, etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Vətənimizə qarşı hərbi təcavüzlə nəticələndi. Həmin ağır sınaq illərində minlərlə oğul və qızlarımız torpaq uğrunda döyüşlərə atıldı. Qədim Basarkeçərdən Azərbaycana pənah gətirmiş 40 mindən çox qaçqından biri də Nərimanlı kəndindən olan ağsaqqal müəllim Cəmil Abdullayevin ailəsi idi. Bu ailənin oğul övladlarından biri olan Şövqiyar da, təbii ki, baş verən ağrı-acıya biganə qala bilmədi, ali təhsilini yarımçıq qoyub, Vətənin müdafiəsinə qalxdı. Xocalı faciəsi isə onun xain düşmənə olan nifrətini, qəzəbini birə-beş artırmışdı. İgid tank komandiri ən qaynar döyüşlərin getdiyi Ağdam torpağında döyüşdü. Onun heyəti Ağdam rayonunun Abdal-Gülablı, Papravənd, Pircamal, Aranzəmin kəndləri, Ağdərənin Drambon kəndi, Sərsəng su hövzəsi uğrunda gedən ağır döyüşlərdə əsl qəhrəmanlıq, fədakarlıq nümunələri göstərdi. 1992-ci il avqustun 23-də Şövqiyarın tank heyəti Abdal-Gülablı kəndi ətrafındakı mövqelərdən Ağdərəyə - Drambon kəndinin müdafiəsinə göndərildi. Sərsəng su hövzəsi yaxınlığındakı Drambon kəndi erməni yaraqlılarının əlində idi. Kəndin ətrafında mövqe tutmuş erməni yaraqlıları əsgərlərimizi güclü atəşə tutaraq, onların kəndə daxil olmasına imkan vermirdilər. 1992-ci il avqustun 27-də baş vermiş ağır döyüşdə o, öz yoldaşlarını əsir düşməkdən xilas etməyi bacarsa da, özü qəhrəmancasına şəhid oldu. Qorxmaz tank komandiri Şövqiyar Abdullayevin cənazəsi Bakıda Şəhidlər xiyabanında böyük ehtiramla torpağa tapşırıldı".

Muzey rəisi çıxışının sonunda onu da qeyd etdi ki, Vətən üçün canından keçən Şövqiyar kimi mərd, qoxmaz oğulların xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayır və yaşayacaq. "Vətəninə, torpağına bağlı Şövqiyarın örnək ömür və döyüş yolu haqqında hələ çox danışılacaq, mərdliyi, qorxmazlığı dastanlara dönüb dillərdə dolaşacaq. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu həm də Şövqiyar Abdullayev kimi vətənpərvər şəhidlərimizin müqəddəs arzularını gerçəkləşdirdi, işğal edilmiş bütün torpaqlarımızı düşməndən azad edərək, işğalçı erməni qüvvələrini tarixi ərazilərimizdən qovdu".

Anım tədbiri Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevə həsr olunmuş sənədli filmin nümayişi ilə davam etdi.

Veteran Tankçılar İctimai Birliyinin sədri Hacı Əzimov 44 günlük Vətən müharibəsində bütün şəhidlərimizin qisasının mənfur düşməndən alındığını dedi. Tank komandiri kimi ağır döyüşlərdə zirehli texnikanı məharətlə idarə etməsindən, düşmənə sarsıdıcı zərbələr endirməsindən, yüksək hazırlıqlı döyüşçü olaraq zabit və əsgərlər arasında dərin hörmət qazanmasından danışdı. "Şövqiyar Abdullayev yaşasaydı, bu gün 55 yaşı olardı, ancaq şəhidlik məqamına ucalanda qəhrəman 23 yaşındaydı. Allah Şövqiyar Abdullayevə və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizə rəhmət eləsin".

Qarabağ Qazilər İctimai Birliyinin sədr müavini Ədalət Asifli-Məhərrəmov, Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri Mehriban Abdullayeva, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Güləmail Murad şəhidlərimizin canı bahasına qazanılan Böyük Zəfərdən, Ali Baş Komandanın qətiyyətli addımlarından, yüksək diplomatik bacarığından, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərindən, ata-baba yurdlarına geri dönən soydaşlarımızın sevincindən danışdılar. Eyni zamanda, gənclərə örnək olan şəhidlərimizin şərəfli həyat və döyüş yoluna həsr edilən belə tədbirlərin keçirilməsinin vacibliyini vurğuladılar.

Daha sonra Milli Qəhrəmanın qardaşı Şəmsi Abdullayev çıxış edərək, ailələrinə göstərilən yüksək diqqət və qayğıya, şəhid qardaşının adının daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Sonda tədbir iştirakçıları Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında şəhidlərimizin xatirəsinə həsr olunmuş mahnıları, vətənpərvərliyi tərənnüm edən musiqiləri maraqla dinlədilər.

*Lalə HÜSEYNOVA*✍

# "Cənnətdə əbədi ad günün mübarək!"

**İkinci Fəxri xiyabanda şəhid, kapitan Ülvü Möhsün oğlu Hüseynovun anadan olmasının 36-cı ildönümü qeyd olundu. Şəhidin doğum günündə ailə üzvləri, Müdafiə Nazirliyinin, ictimaiyyətin nümayəndələri eləcə də başqa qonaqlar əvvəlcə məzarı üstünə tər çiçəklər qoydular.**

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani şəhid kapitan Ülvü Hüseynovun məzarı önündə çıxış edərək mərhumun həyatından, döyüş yolundan söz açaraq dedi ki, Ülvü Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Sabir kəndində doğulub. Heydər Əliyev adına Hərbi Liseydə oxuyub, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi institut) "motoatıcı" ixtisası üzrə təhsil alıb. Zabit kimi hərbi xidmətini cəbhə bölgəsində keçirib.

İkinci Fəxri xiyabana xitabən - "Müqəddəs ünvandı bu yer, bu məkan. İllər ötür, nəsillər dəyişilir, hər şey unudulur, yaddan çıxır, amma unudulmayan, yaddan çıxmayan, torpaq uğrunda şəhid olan qardaşlarımızdı. Ülvü və onun kimi qeyrətli, cəsur oğulların sayəsində bu gün torpaqlarımız düşmən tapdağından azaddır. Ona görə də bu gün onların ruhu şaddır".

Polkovnik Abdulla Qurbani daha sonra qeyd etdi ki, o, 1992-ci ildə Ordubad rayonunun Sabir kəndində Birinci Qarabağ müharibəsi şəhidinin dəfn mərasimində iştirak edib. O zaman Vətənimizin hər yerində olduğu kimi, Ordubadda da gənclər könüllü cəbhəyə gedirdilər. Onların da bir arzusu, bir amalı vardı: Vətən torpağını qorumaq. Ülvü də onların vətənpərvərliyindən ruhlanaraq böyüyəndə hərbçi peşəsini seçmişdi. Kapitan rütbəsinə qədər yüksəlmişdi. İkinci Qarabağ müharibəsində Füzulidən Şuşaya qədər şərəfli döyüş yolu keçdi. Müharibənin bitməsinə bir gün qalmış Şuşada şəhadətə ucaldı. Ülvü hər birimizin qəlbində əbədiləşdi.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Ülvü Hüseynov "Qarabağ" ordeni ilə təltif olundu.

Polkovnik Abdulla Qurbani şəhid Ülvü Hüseynovun oğlu Nihada müəllifi olduğu "Vətən müharibəsi şəhidləri" kitabını hədiyyə etdi.



Şəxsi Heyət Baş İdarəsi Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova şəhidin anasına, həyat yoldaşına səbir dilədi. Xalqımızın şəhid qəhrəman oğullarla həmişə fəxr etdiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə həmişə diqqət və qayğı göstərdiyini bildirdi.

Şəhidin qohumları, "Uğurlu yol" qəzetinin baş redaktoru və digər çıxış edənlər Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq, şücaət göstərərək şəhid olanlardan, həmçinin Ülvünün keçdiyi döyüş yolundan bəhs etdilər. Şəhidlərin və döyüşlərdə yaralananların göstərdiyi qəhrəmanlıqlara görə bu gün torpağımızın erməni tapdağından azad edildiyini bildirdilər.

*Bəxtiyar ƏLİYEV*✍

# "Çox arzulayardım ki, Azərbaycanda hərbi vətənpərvərlik düşərgələri fəaliyyətə başlasın"



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən Bakı şəhəri, Sabunçu rayonunda yerləşən 67 saylı tam orta məktəbdə tədbir keçirilib. Tədbirdə SHXÇDX-nin Çağırışaqədərki hazırlıq idarəsinin rəisi polkovnik-leytenant Füzuli İsmayılov, İctimaiyyətlə iş və beynəlxalq əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov, Xidmətin Sabunçu rayon şöbəsinin rəisi polkovnik-leytenant Nicat Həsənov, məktəbin direktoru İradə Bayramova və məktəbin kollektivi iştirak edib. Məktəbin yuxarı sinif şagirdlərinin də iştirak etdiyi tədbiri keçirməkdə məqsəd "Şahinlər" hərbi-idman oyunlarında həmin məktəbi təmsil edən komandanın kapitanı Ayan Həsənovanın AK-74 avtomat silahının sökülüb-yığılmasında xüsusi bacarıq göstərdiyini nəzərə alaraq təltif edilməsi olub. Ayan Həsənovanın avtomat silahını gözü bağlı şəkildə həmyaşıdlarından daha tez söküb, həmçinin yığması sosial şəbəkələrdə geniş müzakirə olunub. Ona bu bacarığına görə Xidmət rəisinin adından fəxri fərman və hədiyyələr təqdim edilib. Məktəbin çağırışaqədərki hazırlıq rəhbəri, Vətən müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenant Muraz Sadıqov da pedaqoji fəaliyyətində fərqləndiyinə və şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsini yüksək səviyyədə təşkil etdiyinə görə fəxri fərmanla təltif edilib.

**Ehtiyatda olan zabit, hərbi ekspert Abuzər Əbilov Herbiand.az-a bildirib ki, belə tədbirlərin keçirilməsi vacib bir amildir:**

"Çünki 30 il davam edən müharibə və sonra 44 günlük müharibə zamanı torpaqlarımızın azad olunması, döyüş qələbə çalmağımız, lakin müharibənin davam etdiyi bir dövrdə bu kimi tədbirlərin məktəblərdə, məktəbəqədər təhsil müəssisələrində, kolleclərdə, akademiyalarda, universitetlərdə keçirilməsi vacib amildir. Çünki fakt bundadır ki, Azərbaycan müstəqil və inkişaf edən dövlətdir. Biz Azərbaycanın inkişafını, müstəqilliyini qəbul etməyən bir çox dövlətlərlə həmsərhədik. Yaxud, Avropada olan bir çox dövlətlərin qısqancılıq və yumşaq dildə desək, düşmən nəzəri ilə baxması bütün bu amilləri vacib edir. Belə təcrübə dünya ölkələrində yetərincədir. Ukrayna-Rusiya müharibəsi başlamamışdan əvvəl Ukrayna ərazisində çoxlu hərbi vətənpərvərlik klubları, düşərgələri var idi. Bu düşərgələrdə təlim almış gənclər hal-hazırda Ukrayna ordusunda işğalçıya qarşı döyüşlərdə iştirak edirlər. Yeni texnologiyalarla tanışdılar, yeni müharibə üsulları ilə döyüşlər aparırlar. Bütün bu amillər müstəqil dövlətin güclü və stabil qalması üçün vacib olan şərtlərdən biridir".

**Ehtiyatda olan zabit deyib ki, yaxın keçmişimizdə rəhbərlik etdiyim "Legion" Hərbi Vətənpərvərlik Klubu ilk olaraq qarşısına torpaqlarımızın düşməndən azad olunması prinsipini qoymuşdu:**

"Bu prinsipin içərisində tək orduya könüllü yardım kampaniyaları, ordu ilə ictimai kampaniyalar, xalq və ordu anlamının gücləndirilməsi daxil deyildi. Bundan əlavə gənclərimizin hərbi vətənpərvərlik ruhunda böyüməsi, təlimlənməsi və onların əsgəri xidmətə, Vətənin müdafiəsinə hazır olması prinsipləri idi. Həmin illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi və hazırki Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Baş Qərargah rəisi general Kərim Vəliyevin və polkovnik Vaqif Dərgahlının dəstəyi ilə Sabunçu Gənclər Evi və "Legion" Hərbi Vətənpərvərlik Klubu vətənpərvərlik kursu təşkil etdi. Bu, bir aylıq kurs idi və 25 kursant seçildi. Onların hər biri Müdafiə Nazirliyi tərəfindən geyim formaları ilə təmin olundu. Heydər Əliyev adına Hərbi Akademiyada, Naxçıvanski adına Hərbi Liseydə olan stimulyatorlarla, hərbi texnika ilə hərb anlayışına aid bütün fənnlər üzrə mütəxəssislər tərəfindən öyrədildi. Poliqonlara gedildi, hərbi hissələr ziyarət olundu. Ondan əlavə, Sabunçu Gənclər Evinin nəzdində olan dərs siniflərində keçmiş xüsusi təyinatlılar, hal-hazırkı qoşun növlərinin zabitləri və legionun mütəxəssisləri tərəfindən dərslər keçirildi. Onlar bir aylıq kursu bitirəndən sonra sertifikatlar aldılar. Həmin gənclərdən bir çoxu Vətən müharibəsində iştirak etdi, hərbi xidmətə getdi, hazırlıqlı olaraq komandirlər üçün bir tapıntı oldu".

**Hərbi ekspertin sözlərinə görə, sovet dövründə belə hərbi vətənpərvərlik düşərgələri var idi:**

"Bu düşərgələrdə gənclər tətillərdə vətənpərvərlik dərsləri keçirdilər, dincəlirdilər, Vətənin müdafiəsi üçün bir çox elmlərlə təlimlənirdilər. Əfsuslar olsun ki, sovetlərdən qopan Azərbaycanda bu məsələlər bir az gecikdi və lazımi səviyyəyə gəlmədi. Təəssüflə bildirmək istəyirəm ki, həmin zamanlarda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin keçmiş rəisi tərəfindən bizlərə çox maneələr törədildi, dəstəklər verilmədi. Bir çox xoşagəlməz məsələlər ortaya gəldi. Amma yeni rəhbərliyin dəstəyi ilə bu kimi tədbirlər ortaya gəlib və çoxalmağa başlayıb. Bu da təqdir olunası, bəyəniləsi bir amildir. Bundan əlavə qeyd etmək istəyirəm ki, belə görüşlər tək məktəblərdə olmasın. Çox arzulayardım ki, Azərbaycanda bir çox dövlətlərdə olduğu kimi, hərbi vətənpərvərlik düşərgələri fəaliyyətə başlasın. Bunun üçün dövlətimizin maliyyə vəsaiti və imkanları yetərincədir. Bu düşərgələrdə gənclərimiz hərbi vətənpərvərlik kursları üzrə Vətənin müdafiəsinə mükəmməl öyrədilsin ki, sabahkı gün orduya hazırlıqlı əsgər göndərə bilək. Çünki hazırki dönəmdə gənclər üçün tədris prosesindən sonrakı tətillərdə məşğuliyyət qıtlığı yaranıb".

**Abuzər Əbilov qeyd edib ki, sovetlər dönəmində pionerlər, komsomollar evləri var idisə, indi də gənclər evləri var:**

"Ancaq bu evlər böyük əhalimizin tələbatını qarşılamaqda bir az çətinlik çəkir. Ona görə də hərbi vətənpərvərlik düşərgələrinin yaradılması, gənclərin tətil vaxtı burda dincəlməsi, hərb silahların, texnikaların və elminin öyrənilməsi və digər vətənpərvərlik bilgilərinin alınması çox gözəl amil olardı. Həmin düşərgələrdə gənclər mülki həyatda olan bir çox xoşagəlməz neqativ hallardan uzaqlaşdırılardı. Psixoloji və ideoloji hazırlıqları yüksələrdi. Bu bir arzu və istəkdir, Ali baş Komandanımıza, hökümət strukturlarına xahişdir. Bu kimi tədbirlərin olması bizə vacibdir. Çünki hazırda gördüyümüz kimi sülh müqaviləsi deyən dövlət sərhədlərimizə qoşun yığır, yeni təxribatlara hazırlaşır. Heç kim təminat verə bilməz ki, sabahı gün onlar sülh prosesinə sadiq olaraq yaşayacaqlar və Azərbaycanla dostluq şəraitində əlaqələrini quracaqlar. Bundan əlavə başqa dövlətlər də var. Ona görə tək nizami ordunmuz yox, həm də gənclərimiz müsəlləh əsgər olaraq hazırlıqlı olmalıdırlar".

***Bəxtiyar CƏFƏRLİ***



# COP29-a qədər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin reallaşma imkanları uzaq görünmür

Azərbaycanla Ermənistan arasında ləyaqətli sülh müqaviləsinin imzalanmağı və iki ölkə münasibətlərinin barış, qarşılıqlı anlaşma və etimad şəklində davam etdirilməyi Azərbaycanın prioritet məsələlərindən biridir.

*Bu fikirləri Herbiand.az-a politoloq Tural İsmayılov bildirb. Qeyd edib ki, Azərbaycan regionda qalib tərəf kimi şərtləri diqtə edir:*

"Ölkəmizin diqtə etdiyi şərtlər nəinki Ermənistanı geriyə atır, əksinə Ermənistan üçün bir nəfəslik rolu oynayaraq onu normal bir dövlət halına gətirə bilər. Amma biz hətta 2023-cü ilin sonlarında sülh müqaviləsinin heç olmasa ilkin versiyasının imzalanma ehtimallarını yüksək sayırdıq. Hətta keçən ilin sentyabr ayında Xankəndidə keçirilən antiterror əməliyyatlarından sonra Azərbaycanla Ermənistan arasında real sülh müqaviləsinə yaxınlaşmaq imkanları daha da genişlənmişdir. Amma hadisələrin sonrakı dövrdə inkişafı onu göstərdi ki, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamaq xəttinə çox da yaxın dayanmır. Baxmayaraq ki, Ermənistan hakimiyyəti sülhlə bağlı beynəlxalq auditoriyanı aldadan açıqlamalar verir. Və həmçinin guya sülhpərvər bir mövqedə olduğunu göstərməyə çalışır".

**Politoloqun sözlərinə görə, fakti-ki məsələ ondan ibarətdir ki, Ermənistanın bütün bu addımlarına və açıqlamalarına rəğmən reallıqda Ermənistan həqiqi sülh müqaviləsinin imzalanma imkanlarını sabotaj edir:**

"Burda əslində sülhə mane olan tərəf Ermənistan yox, Ermənistan maskası geyinən neoimperialist şəbəkələrdir ki, bunların da başında heç şübhəsiz Fransa və kollektiv Qərb qüvvələri dayanır. Və hesab edirəm ki, o həmin qüvvələr Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməyinə əsas qarşı çıxan ölkələrdir. Amma COP29-a qədər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin reallaşma imkanları da uzaq görünmür".

***Elnurə İSAXAN***

# Hüquqi dövlətin əsas şərtlərindən biri vətəndaş cəmiyyətinin olmasıdır - Zaur İBRAHİMLİ

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Layihə çərçivəsində

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**



**Hüquqi dövlətin formalaşmasında vətəndaş cəmiyyətinin inkişafının təmin edilməsinin xüsusi önəmi var. Müxtəlif sahələrdə öz fəaliyyət istiqamətini quran qeyri-hökumət təşkilatlarını, ictimai birlikləri, müxtəlif təşəbbüs qruplarını özündə birləşdirən vətəndaş cəmiyyəti dövlətin inkişafını göstərən əsas faktorlardandır. Bu səbəbdən də vətəndaş cəmiyyəti mütləq şəkildə düzgün formalaşmalı, inkişaf etməlidir. Çünki bu hüquqi dövlətin formalaşmasında mühüm əhəmiyyət daşıyır.**

**Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı hər zaman xüsusi diqqət mərkəzində saxlanılaraq prioritetlər sırasında dayanıb. Ölkəmizdə qeyri-hökumət təşkilatlarının uğurlu və keyfiyyətli fəaliyyəti üçün lazımi tədbirlər həyata keçirilir. Hərtərəfli imkanlarının yaradılmasında onlara hər cür dəstək verilir.**

**"Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimli ilə söhbətimizi də vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu istiqamətində apardıq.**

**- Hüquqi dövlətin formalaşmasında vətəndaş cəmiyyətinin rolu nədən ibarətdir?**

- Hüquqi dövlətin mövcud olması üçün ilk növbədə, cəmiyyətin özünün inkişaf dərəcəsi və cəmiyyətin özünün düşüncə tərzi demokratik qanunçuluq prinsipini hər şeydən üstün tutmalıdır. Yəni cəmiyyət qanunlarla idarə olunmağı bir yanaşma, dünyagörüş kimi qəbul etməlidir. Əsas təməl şərti bundan ibarətdir. İkincisi isə qeyd etdiyimiz kimi, inkişaf etmiş vətəndaş cəmiyyəti olmalıdır. Hansı ki, bu vətəndaş cəmiyyəti hüquqi dövlət institutlarının yaradılmasında aparıcı rola malikdir. Biz güclü vətəndaş cəmiyyətinə malik olduqda effektiv ictimai nəzarəti həyata keçirə bilirik. Eyni zamanda siyasi və dövlət institutlarının qanun çərçivəsində fəaliyyətini monitorinq edirik. Həmçinin daha yaxşı idarə etmək üçün təkliflər və tövsiyələr verə bilirik. Yəni bu baxımdan hüquqi dövlətin əsas şərtlərindən biri də məhz vətəndaş cəmiyyətinin olmasıdır. Çünki vətəndaş cəmiyyəti konstitusion məhdudiyyətlərə əməl edilməsinə nəzarət edir. Konstitusion çərçivələrin gözlənilməsinə nəzarət edir.

**- Hüquqi dövlətin mövcudluğu üçün hansı şərtlər zəruri hesab olunur?**

- Hüquqi dövlət, siyasi hakimiyyətin elə təşkili formasıdır ki, bu zaman qanunun aliliyi təmin olunur. Eyni zamanda hakimiyyətin həyata keçirilməsi konstitusiya çərçivələri ilə müəyyən olunur, onunla məhdudlaşır və bütün hakimiyyət səlahiyyətləri məhz Konstitusiya ilə, qanunla müəyyənləşir. Eyni zamanda, hüquqi dövlətin əsas vəzifəsi əsasən hüquq və azadlıqlarının müdafiəsidir. Biz hüquqi dövlət deyəndə üç əlaməti nəzərdə tuta bilərik: Birincisi, qanunçuluq prinsipi hüquqi dövlətdə dövlət orqanları və vətəndaşların bütün hərəkətləri, o cümlədən hakimiyyətin həyata keçirilməsi səlahiyyətləri yalnız və yalnız xalqın iradəsinə söykənən qanunvericiliklə müəyyən olunur. İkincisi, əsas insan hüquq azadlıqlarının qorunmasıdır. Dövlətin ali məqsədi əsas insan hüquq və azadlarının qorunması, insanların rifahının təmin olunması və onların siyasi hüquqlar və vətəndaş hüquqları ilə yanaşı, eyni zamanda sosial, iqtisadi hüquqlarının təmin olunmasıdır. Üçüncü əsas sütun isə inkişaf etmiş vətəndaş cəmiyyətinin olması və vətəndaş cəmiyyətinin inkişafı üçün hərtərəfli şəraitin yaradılmasıdır. Bu zaman vətəndaş cəmiyyəti hüquqi dövlətdə ictimai nəzarət funksiyalarını həyata keçirir, ictimai maraqların müdafiəçisi kimi çıxış edir. Eyni zamanda vətəndaş cəmiyyəti və hüquqi dövlət ikili təbiətə malikdir. Birinci olaraq hüquqi dövlətin yaranmasında fəal aparıcı rola malikdir. Xüsusən qanunvericiliyin işlənməsində insan hüquq və azadlıqlarının standartlarının müəyyən olunmasında, ən yaxşı dövlət idarəçilik modellərinin müəyyən olunmasında vətəndaş cəmiyyəti əsas aparıcı qüvvə hesab olunur. İkincisi isə qanunlara riayət olunmasına, qanunvericiliyin əsas götürülməsinə nəzarət edir, ictimaiyyətin maraqlarını müdafiə edir. Bu zaman vətəndaş cəmiyyəti ictimai maraqları həm özəl sektora münasibətdə, həm də dövlətə münasibətdə müdafiə edir və beləliklə cəmiyyətin hormonik inkişafını təmin etmiş olur. Onu da qeyd edim ki, güclü vətəndaş cəmiyyəti güclü şəkildə ictimai maraqların müdafiəsidir. Və ictimai maraqların səmərəli, effektiv müdafiəsi cəmiyyətdə həm qanunçuluq prinsipinin təmin olunmasını həyata keçirir, eyni zamanda cəmiyyətdə kəskin sosial ziddiyyətlərin baş verməsinin qarşısını alır. Bu baxımdan vətəndaş cəmiyyəti hüquqi dövlətin əsas sütunlarından və onun effektiv işləməsi üçün əsas hərəkətverici qüvvələrindən biridir.

**- Hüquqi dövlət və vətəndaş cəmiyyətinin birgə vəhdət təşkil etməsi nə dərəcədə doğru hesab oluna bilər?**

- Hüquqi dövlət və vətəndaş cəmiyyəti bir-birindən asılı olan və eyni zamanda bir-birini ayaq üstə saxlayan iki sütundur. Çünki inkişaf etmiş vətəndaş cəmiyyəti yalnız hüquqi dövlətdə mümkündür. Eyni zamanda hüquqi dövlətdə yalnız vətəndaş cəmiyyətinin fəal rolu onun yüksək inkişaf səviyyəsi ilə qurula bilər. Yəni bu baxımdan bunlar qarşılıqlı vəhdətdədirlər və bir-birilərini şərtləndirirlər. Hüquqi dövlət qurmağa nail olmuş bütün cəmiyyətlər, eyni zamanda güclü vətəndaş cəmiyyətinə malikdirlər və güclü vətəndaş cəmiyyətinə malik olan cəmiyyətlər də hüquqi dövlət qurmaq potensialına malikdir. Belə bir qarşılıqlı asılılıq və qarşılıqlı əlaqə var. Həmçinin vətəndaş cəmiyyəti, həm də burada bir ideya generatoru kimi də çıxış edir. Yeni cəmiyyətin daha da irəli getməsi üçün yeni ideyaların irəli sürülməsi, qanunvericiliyin inkişafı, yeni baxışın, dünya görüşünün formalaşmasını təmin edir. Və ən vacib məsələlərdən biri də əhalinin hüquqi maarifləndirilməsidir. Vətəndaş cəmiyyəti əhalinin hüquqi maarifləndirilməsində böyük rola və əhəmiyyətli töhfəyə malikdir. Hüquqi dövlət o zaman dayanıqlı və hüquqi dövlətdəki təsisatlar o zaman effektiv olur ki, cəmiyyətin hüquqi düşüncəsi yüksək olsun, əhali hüquqi baxımdan savadlı olsun və eyni zamanda qanunlara münasibətdə də cəmiyyətdə səmimi münasibət yaransın. Bütün bunları isə vətəndaş cəmiyyəti həyata keçirir. Vətəndaş cəmiyyətinin belə çox mühüm xüsusi rolu vardır. Bir sözlə, vətəndaş cəmiyyətinin hüquqi dövlətin qurulmasında rolu kifayət qədər yüksəkdir. Vətəndaş cəmiyyəti dövlətin əsas dayaqlarından biridir.

***Elnurə İSAXAN***

# Demokratik hüquqi dövlət quruculuğu hər zaman Heydər Əliyev siyasi xəttinin əsasını təşkil edib

*"Demokratik prinsiplər mənim həyatımın mənasını təşkil edir və bundan sonra demokratiya bizim dövlətimizin əsasını təşkil edəcəkdir... Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir. Ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".*

***Azərbaycan Respublikasının Ümummilli Lideri, Ulu Öndər Heydər ƏLİYEV***



Demokratik tərəqqi yolunu seçən, dünyəvi dəyərlərə əsaslanan, Şərq mentalitetini qorumaqla beynəlxalq təsisatlarla sıx işbirliyi quran Azərbaycanın dünya birliyində öz yerini müəyyən etməsində ümummilli lider Heydər Əliyevin misilsiz rolu var. Müstəqil demokratik, hüquqi dövlət quruculuğu prosesi Heydər Əliyevin Azərbaycana rəhbərliyinə qayıdışı ilə başlanmışdı. Ulu öndər bu istiqamətdə ardıcıl siyasət yeridərək, ilk növbədə ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradılmasını təmin etdi. Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə xüsusi diqqət yetirilən məqamlardan biri insan hüquqlarının ən yüksək səviyyədə qorunması, söz, fikir azadlığının təmin edilməsi və bu qəbildən olan digər məsələlər olub. Bu mənada Ümummilli Liderin milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atdığı vacib addımlar sırasında insan amilinə yüksək dəyər verən hüquq sisteminin qurulması və inkişaf etdirilməsinin xüsusi yer tutması tamamilə təbii xarakter daşıyıb.

1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən geniş miqyaslı tədbirlər həyata keçirilməsi sayəsində insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin, onların ictimai fəallığının və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zəmin oldu. Bu, xalq ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi. Ulu öndər Heydər Əliyevin idarəçiliyində humanizm prinsiplərinin prioritet istiqamət təşkil etməsi, insan hüquq və azadlıqlarının reallaşdırılması və yüksək səviyyədə müdafiəsinə hər cür şərait yaradılması dünyanın siyasi səhnəsinə artıq müstəqil dövlət kimi qədəm qoyan Azərbaycan dövlətçiliyinin mahiyyətində dayanan əsas məqamlardan birini təşkil edib. Beləliklə, həm də mütərəqqi demokratik ideyalara sadiq olan Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət quruculuğu başlanıb, bunun üçün daim təkmilləşdirilən möhkəm hüquqi baza formalaşdırılıb.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır. Ölkəmizdə həyata keçirilən hüquqi islahatlara tarixi prizmadan nəzər salsaq, görərik ki, müasir hüquq sisteminin keçdiyi inkişaf yolunun ilkin mərhələsində azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə yönəlmiş hüquqi islahatların konsepsiyası işlənib hazırlandı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Əsas Qanun müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır. Konstitusiyada müstəqil və şəffaf məhkəmə sisteminin fəaliyyətini müəyyənləşdirən əsas prinsip və normalar öz əksini tapdı.

Heydər Əliyev siyasi hakimiyyətə qayıdandan dərhal sonra bəyan etdi ki, qarşıda əsasən iki məsələ dayanır: dövlət müstəqilliyini əbədiləşdirmək və Azərbaycan vətəndaşı üçün xaos və anarxiyadan uzaq, firavan, ədalətin bərpa edildiyi bir cəmiyyət formalaşdırmaq. Bu isə ulu öndərimizin insan hüquqlarına və ədalətə nə dərəcədə önəm verdiyini göstərirdi. Məhz həmin önəmin nəticəsi idi ki, ümummilli lider dünyanın demokratik ölkələrində mövcud olan ən mükəmməl təcrübələri də nəzərdən keçirdikdən sonra Azərbaycanda möhtəşəm hüquq islahatlarına başladı. Həmin islahatların ən mühüm tərkib hissələrindən olan məhkəmə hakimiyyəti sahəsində nəinki respublikamızda, həm də bütün postsovet məkanında misli olmayan yeniliklərə imza atıldı. "Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin əsasını təşkil edən qanunlardır. Biz qanunsuzluqları, ədalətsizlikləri aradan götürəcəyik, ancaq bir iş qanunsuz olursa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Ədaləti bərpa etmək lazımdır" deyən Ulu Öndər hər zaman cəmiyyətdə ədalətin bərqərar edilməsini, möhkəmlənməsini arzulayırdı.

Ümummilli lider Heydər Əliyevin hüquqi siyasət kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə bir sıra mühüm təşəbbüslərlə çıxış edir. Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə, eyni zamanda, ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədi ilə müvafiq tədbirlər həyata keçirilir. İqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılması, dövlət və yerli idarə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, korrupsiyaya qarşı mübarizənin normativ və institusional əsaslarının təkmilləşdirilməsi, eləcə də korrupsiyaya qarşı mübarizə ilə əlaqədar götürülmüş öhdəliklərin həyata keçirilməsi məqsədilə bir sıra tədbirlər görüldü.

Azərbaycan Respublikası Prezidentinin apardığı uğurlu siyasətin əsas istiqamətlərindən biri olan hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar ədalət mühakiməsini keyfiyyətcə yeni səviyyəyə qaldıracaq, hüquq sisteminin davamlı müasirləşməsini təmin edəcək. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, hərbi idarəçilik orqanlarında insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, habelə cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirləri dönmədən həyata keçirirlər.

Son illər ərzində hərbi prokurorluq orqanları tərəfindən Silahlı Qüvvələrdə və qanunvericilikdə nəzərdə tutulmuş başqa silahlı birləşmələrdə qanunların icrasına nəzarət və hərbi qulluqçular tərəfindən qanunazidd hərəkətlərin törədilməsinin qarşısının alınması sahəsində çoxşaxəli tədbirlər görülüb. Məhz elə bunun məntiqi nəticəsidir ki, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin kəsərliliyinin və istintaq olunan cinayət işlərinə, ibtidai araşdırmaya prosessual rəhbərliyin gücləndirilməsi və işin düzgün təşkili nəticəsində hərbi hissələrdə törədilən cinayətlərin, xüsusən də qəsdən adam öldürmə, intihar, habelə fərarilik və digər bu kimi hərbi xidmət əleyhinə olan cinayətlərin sayı getdikcə azalıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı ilə ölkəmizin hüquq sistemində aparılan uğurlu islahatlarla yanaşı, Azərbaycanın iqtisadi gücü artırılıb, Silahlı Qüvvələri hərtərəfli və uzun müddət təmin edə biləcək davamlı baza yaradılıb. Məhz Prezidentin apardığı uğurlu siyasətin nəticəsidir ki, şanlı Ordumuz 44 günlük Vətən müharibəsində mənfur düşməni məğlub edərək, 30 ildən sonra əzəli torpaqlarımızı işğaldan azad edib.

***Elçin QULİYEV***
***Ağdam Hərbi prokurorunun müavini, ədliyyə mayoru***

# Heydər Əliyev - xalqın qürur və iftixar mənbəyi olan dünyaşöhrətli siyasətçi



Xalqın qürur və iftixar mənbəyi olan dünyaşöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycan bu gün uğurlu inkişaf yolundadır. Həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradaraq, Azərbaycanı, xalqımızı böyük bəladan, dəhşətli fəlakətdən xilas etdi. Tariximizdə xalqın xilaskarı olaraq adını əbədiləşdirdi. Ulu Öndərin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da müdrik liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu, müstəqil Azərbaycanın adı zirvələrə yüksəldi. Müstəqilliyimizin bərpası asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilməmişdi. 1993-cü ilin iyununda baş vermiş hadisələr müstəqilliyini bərpa etmiş Azərbaycanı uçuruma aparırdı. Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.



Bu fikirləri açıqlamasında Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib.

"Ulu Öndər Heydər Əliyevin öz müqəddəs xilaskarlıq missiyası ilə böyük siyasətə qayıdışı Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz", - deyirdi Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Otuz il bundan əvvəl 1993-cü il iyunun 24-ü Milli Məclisin qərarı ilə Azərbaycan Prezidentinin səlahiyyəti Ali Sovetinin sədri Heydər Əliyevə həvalə olundu. O zaman ölkəmiz öz həyatının çox ciddi siyasi-ictimai çətinlikləri ilə üz-üzə qalmışdı. Çünki hakimiyyətdə olan səriştəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Prezidenti seçildi. Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi", - deyə A.Süleymanov vurğulayıb.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilərin dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdığını diqqətə çatdıran A.Süleymanov əlavə edib: "Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Liderin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır.



Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Sözsüz ki, Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, bu günün Azərbaycan reallıqlarını diqqətə çəkmək mümkün olmayacaqdır. Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib".

**Azərtac**

# Xalq rəssamı Hüseyn Əliyevin anadan olmasının 113-cü ildönümü tamam oldu



***Bu gün Xalq rəssamı Hüseyn Əliyevin anadan olmasının 113-cü ildönümü tamam olur.***

80 illik ömrün 60 ildən çoxunu sənətə həsr edən, "Mənim müəllimim təbiətin özüdür!",- deyərək Vətəni Azərbaycana sonsuz sevgi ilə bağlanan görkəmli rəssamın yaratdıqları bu gün də böyük maraq doğurur.

Hüseyn Əliyev Azərbaycan təsviri sənətinin ən unudulmaz nümayəndələrindən biridir. Bu istedadlı rəssamın yaradıcılığında portret və təbiət mənzərələri daha çox üstünlük təşkil edir.

Hüseyn Əliyev 1911-ci il aprelin 22-də Zəngəzur mahalındakı Qarakilsə bölgəsinin Comərdli kəndində anadan olub. Gözünü açandan gördüyü təbiət, dağ, şəlalə - bir sözlə, min bir gözəllik kiçik yaşlarından qəlbinə hakim kəsilib. Təsadüfi deyildir ki, ilk rəsm əsərini çəkəndə onun 12 yaşı vardı. Bu sənətin sirlərini daha da dərindən mənimsəmək üçün o, Bakıda rəssamlıq texnikumuna daxil oldu. Burada oxuduğu illərdə (1927-1932) müxtəlif eybəcərlikləri qamçılayan "Molla Nəsrəddin" jurnalında karikaturaları, rəsm əsərləri çap edildi. Azərbaycan mətbuatının inkişafında mühüm mərhələ sayılan, işıqlandırdığı mövzular bu gün də aktual səslənən "Molla Nəsrəddin" Hüseyn Əliyevin rəssam kimi formalaşmasında böyük rol oynadı. Onun jurnalda dərc olunan karikaturaları oxucuları düşünməyə, nəticə çıxarmağa vadar edirdi. O, 1932-1935-ci illərdə Leninqrad Boyakarlıq, Memarlıq və Heykəltəraşlıq İnstitutunda təhsil alıb. Təhsilini başa vurduqdan sonra həyatını bütövlükdə "Kommunist" qəzetinə (indiki "Xalq qəzeti") bağlayıb.

Yeri gəlmişkən qeyd edək ki, 1922-ci ildən başlayaraq görkəmli sənət ustası Əzim Əzimzadə "Kommunist"in baş rəssamı olub. 1935-ci il oktyabrın 4-dən isə onu gənc və istedadlı rəssam Hüseyn Əliyev əvəz edib. H.Əliyev yarım əsrdən çox "Xalq qəzeti"nin bədii tərtibat şöbəsinin müdiri işləyib.

İstedadlı rəssamın yaradıcılığında portret və təbiət mənzərələri üstünlük təşkil edirdi. Təsadüfi deyil ki, gənc vaxtlarında çəkdiyi dahi mütəfəkkir Mirzə Fətəli Axundzadənin portretinə görə o, respublika müsabiqəsində birinci yerə layiq görülüb və üç min manat mükafat alıb. Hüseyn Əliyev sərbəst və cəld işləməyin ustası idi. Hələ tələbəlik illərində yaratdığı sənət əsərləri elə ilk baxışdan diqqəti cəlb edirdi. O öz iş yoldaşlarının, ailə üzvlərinin, onda maraq doğuran adamların portretini qısa müddət ərzində çəkə bilirdi.

İkinci Dünya müharibəsi başlayanda Hüseyn Əliyev könüllü surətdə orduya yazılıb. Daxili İşlər Nazirliyinin tabeliyindəki 48 saylı bədii təşviqat polkunda rəssam işləyib. Musiqiçilər bölməsinin üzvləri ilə birlikdə dəfələrlə ön cəbhədə olub, neçə-neçə igid döyüşçünün portretini yaradıb, müharibə mövzusunda plakatlar hazırlayıb, qəsbkarlıq məqsədi güdən hitlerçilərin karikaturasını çəkib.

1940-cı ildən Rəssamlar İttifaqının üzvü olan Hüseyn Əliyev 1977-ci ildə Əməkdar rəssam, 1982-ci ildə Xalq rəssamı fəxri adlarına layiq görülüb.

Uşaqlığı Zəngəzur və Naxçıvanda keçən rəssam təbiətin rəngarəng qammasının vurğunu idi. Bu vurğunluq onun hər bir əsərində, rənglərin palitrasında, yaradılmış obrazların reallığında hiss olunur.

Xalq rəssamı Tahir Salahov öz xatirələrində yazır: "Qəlbimdə Xalq rəssamı Hüseyn Əliyevin işıqlı, cazibəli xatirəsi yaşayır. O, Azərbaycan rəssamlıq ənənəsini Bəhruz Kəngərli və Əzim Əzimzadədən alıb davam etdirmişdir. Biz nəsil rəssamlar incəsənətə xeyli sonralar gəlmişik. Həmişə bu qocaman ağsaqqalımıza minnətdarlıqla yanaşır, onun yaradıcılığını və mədəniyyətə gətirdiyi yeni nəfəsi yüksək qiymətləndiririk. O, rənglərlə işləməyin ustası idi. Xüsusilə də məzmunun mənasını açmağa kömək edən atribut və rəmzləri öz əsərlərində məharətlə tətbiq edirdi. Onun rənglərində musiqinin ritmi və ahəngi duyulurdu. Bu canlılıq hər rəssama xas olmur".

Vətənin füsunkar təbiəti rəssamın duyğuları ilə həmahənglik yaradaraq rənglərdən ibarət nəhəng bir çələngə çevrilib. Fırça ustasının Göygölün təsvirinə həsr edilmiş silsilə əsərləri xüsusi ilə diqqət cəlb edir. Xalq rəssamı Azərbaycan təbiətinin incilərindən sayılan bu mavi gözlü gözəlin müxtəlif variantlarda təsvirini yaradıb. Onun qurduğu kompozisiyalar, rəng ötürmələri, koloritlik öz bənzərsizliyi ilə seçilir. İki il ərzində Kəpəz dağının 25-dən artıq akvarel görünüşünü kətana naxışlayan Hüseyn Əliyev həqiqətən möcüzə yaradıb.

Xalq rəssamı Mikayıl Abdullayev sənət dostunun bu uğurundan vəcdə gələrək yazırdı: "Dünya təcrübəsində yalnız italyan rəssamının bir dağın on görünüşündən başqa heç kim bir obyektin 25 görüntüsünü kətan üzərində əks etdirməyib".

Hüseyn Əliyevin "Zəngəzur mənzərəsi", "Zəngəzur dağları", "Şəki şəlaləsi", "Comərdli mənzərəsi", "Meşədə qış", "Payız", "Qürub çağı" kimi əsərləri incə müşahidə qabiliyyətinin məhsuludur.

Hüseyn Əliyev həm də portret janrının ustadı idi. Çəkdiyi portretin hər biri insanın daxili dünyasını, sənətini əks etdirmək baxımından maraq doğurur. Məsələn, əlləri qoynunda dayanmış Hüseyn Cavidin portreti çox canlı və mənalıdır. Eləcə də Nizami Gəncəvinin portreti də düşündürücü təsir bağışlayır. Hüseyn Əliyevdən bizə ərməğan qalan bir sıra portretlər var ki, tarixilik baxımından böyük əhəmiyyət daşıyır.

Həyat, sevgi, gözəllik, dinamizm - Hüseyn Əliyev yaradıcılığını bu cür xarakterizə etmək olar.

# Azərbaycanın görkəmli qiraət ustası - Həsən Əbluc

**Elə sənətkarlar var ki, onlar həmişə arzuolunandırlar. Belələri üçün efirdə görünmək təkcə şöhrət və şərəf məsələsi deyil. Onlar bunu tamaşaçı zövqü, marağı və alqışı ilə qazanırlar. Azərbaycanın görkəmli qiraət ustası Həsən Əbluc kimi.**



Bu gün tanınmış aktyor və rejissor, bədii qiraət ustası, pedaqoq, Əməkdar artist Həsən Əblucun anadan olmasının 82-ci ildönümü tamam olur.

Tanrı ona elə bir böyük məharət, gözəl bir səs bəxş etmişdi ki, bu təkrarolunmaz deyim tərzi yalnız və yalnız ona məxsus idi. Çoxları bu yolda var-gəl etsə də, Həsən Əbluc üslubu daim öz kamilliyi, ustalığı, axarı, qeyri-adi səslənişi ilə ürəklərə qəribə bir rahatlıq, bəlkə də narahatlıq gətirirdi. Sanki dinləyici onu dinləməyə məhkum olurdu. Ona görə ki, onun səsləndirdiyi istər poeziya, istərsə də nəsr nümunələrini başqaları nədənsə dinləyicinin daxilinə, varlığına o cür hakim edə bilmirdi. Bu ləngərli, tutarlı, sanballı üslub Həsən Əblucu zaman baxımından çoxlarından fərqləndirirdi. Sağlığında da, ölümündən sonra da. Elə bil onun öz deyim tərzi vardı. Bu ölçüdə hər şey gözəl səslənirdi. Təkcə səslənmirdi, həm də gözəl dinlənilirdi...

Həsən Əbluc 1942-ci il aprelin 22-də Təbriz şəhərində anadan olub. Uşaq yaşlarında ailəsi ilə birlikdə Bakıya köçüb. Həsən Əbluc hələ uşaq vaxtlarından aktyorluğa böyük həvəs göstərib. Orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Politexnik İnstitutuna (indiki Texniki Universitet) daxil olub. Birinci kursdan sonra sənədlərini M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə verib. Elə həmin il Azərbaycan Dövlət Dram Teatrında rumın yazıçı Sebastyanın "Adsız ulduz" tamaşasına quruluş verib.

H.Əbluc Tofiq Kazımov kimi istedadlı rejissorun Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında hazırladığı tamaşalarda ikinci rejissor işləyib, həm də onun kursunda təhsilini davam etdirib. 3-cü kursda oxuyanda Akademik Dram Teatrına işə dəvət olunub. Ona səhnə danışığından Müxlis Cənizadə dərs deyib. O, Həsənin gözəl danışığına, sənətinə, diksiyasına, savadına görə onu assistent götürüb. Həsən Əbluc 30 il Azərbaycan Dövlət İncəsənət Universitetində bir pedaqoq kimi gənclərə sənətin sirlərini öyrədib.

Vaxtilə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Azərbaycan qrupu yaradılmışdı. Məşhur aktyor, rejissor Yevgeni Motfeyev həmin qrupun rəhbəri idi. Ayda bir həftə səhnə danışığından dərs demək üçün Həsən Əblucu Moskvaya dəvət edirdilər.

Həsən Əbluc gözəl, ecazkar, cəlbedici, inandırıcı səsi ilə qəlbi sözə bağlı olanların sevimlisinə çevrilmişdi. O, radio tamaşalarında da saysız-hesabsız baş rollarda oynamışdır. Dublyaj filmlərində bütün rejissorlar baş rolları səsləndirməyi H.Əbluca həvalə edirdilər. Çünki o, dublyajda da öz möhürünü vurmuşdu.

Həm müəllim, həm rejissor, həm də aktyor olan Həsən Əbluc, eyni zamanda, biri-birindən maraqlı hekayələr, dram əsərləri yazıb.

O, cəmi 52 il yaşadı. Bu işıqlı dünyadan ömrünün kamilliyə yenicə çatdığı bir vaxtda ayrılan Həsən Əbluc yaddaşlarda da öz kamil və ləngərli səsi ilə elə bu yaşda qaldı. Onu səsinin yaşı ilə ömrünün yaşı bəlkə də üst-üstə düşür. Azı ona görə ki, belə qiraət ustasının səsi heç vaxt qocala, titrəyə, öz təravətini itirə bilməzdi...

Sənətkarın qardaşı kinorejissor Ənvər Əbluc onun haqqında "Həsən Əbluc" filmini lentə alıb. Bu, Həsən Əbluca bir qardaş sevgisi ilə yanaşı, həm də tamaşaçı aşiqliyindən irəli gəlib.

# "İranın dəstək verdiyi hərbi qüvvələrin hərəkətlərindən hər zaman ziyan çəkən müsəlman ölkələr olub"

Aprelin 16-da İranın Ermənistandakı səfiri Mehdi Subhani keçirdiyi mətbuat konfransında İsraillə aralarında olan gərgin vəziyyətlə bağlı bəzi fikirlər söyləyib. Sonra Sübhani digər fikirlər səsləndirərək bildirib ki, "Onlar (ermənilər) bilirlər ki, sionist rejimi Cənubi Qafqazda qeyri-sabitliyin əsas faktorlarından biridir və Qarabağ müharibəsində erməni əsgərləri İsrail silahları ilə öldürülüb".

**Ehtiyatda olan zabit, hərbi ekspert Abuzər Əbilov Herbiand.az-a bildirib ki, İranın müsəlman dünyasına qarşı olan siyasəti artıq göz qabağındadır:**

"Çünki fakt bundadır ki, İranın əli olan hər bölgədə onun üzdə sionist, ABŞ yaxud Avropa deməsinə baxmayaraq keçirtdiyi əməliyyatlardan, yaxud dəstək verdiyi hərbi qüvvələrin hərəkətlərindən hər zaman ziyan çəkən müsəlman ölkələr olub. Yaxın günlərdə İranın İsrailə raket və dronlardan istifadə etməklə zərbə endirdiyini gördük. Bu hadisə adi insanlarda hardasa İranın güc göstərməsi kimi görünə bilər. Bu, hətta daxili auditoriyaya və İranyönümlü dövlətlərə hesablanmış insident idi. Əsasında İran özü də çox gözəl bilirdi ki, İsrailin nə hərbi infrastrukturuna, nə iqtisadiyyatına, nə də əhalisinə heç bir ziyan verməyəcək. İranın özünün belə istəyi də yox idi. Sadəcə bu, güc göstərmək üçün bir şou idi. Şou bizim gözlədiyimiz kimi oldu. Demək olar ki, 99,2 faiz sursatlar İsrailə çatmadı, qonşu ölkələrin ərazisində düşdü. İsrailə çatan sursatların heç biri hərbi infrastruktura və təsərrüfata zərər vermədi. Bu şounun təməl nöqtəsi də bu idi ki, İran deməyinə baxmayaraq İsraildən həddindən artıq ehtiyatla davranır, müasir silah və texnologiyasından, əsgəri qüvvəsindən çəkinir. Çünki çox gözəl bilirdi ki, şou yox həqiqi hücum təşkil etsəydi İsrail onun çox geridə qalmış HHM vasitələrini keçərək müxtəlif təyinatlı infrastrukturuna ağır zərbələr endirəcəkdi".

**Ehtiyatda olan zabit qeyd edib ki, İran adekvat ölkə olmadığına görə siyasətçiləri də adekvat deyil:**

"Xülyapərəst və bir növ siyasətdən xəbərsiz olan insanlardır. Hansı ki, dövlətin siyasətini apamağa çalışırlar, amma bacarmırlar. İran çox gözəl başa düşməlidir ki, Azərbaycan suveren dövlətdir. Onun hərbi-siyasi və iqtisadi xətti özünün istədiyi kimi təşkil olunur. Azərbaycanın dövlət başçısı, Ali Baş Komandanı var və Qafqaz dövlətlərinə çox gözəl məlumdur ki, həddindən artıq manevrli və düşünülən siyasət aparan siyasətçidir. Ölkə başçısı hansı dövlətlərdən nələr almaq lazım olduğunu özü təyin edir. Müasir hərb texnologiyasına baxanda İsraildən alınan silah-sursatlar, hərbi və mülki texnologiyalar müasir, innovativ və dəqiqdir. Biz buna biganə qala bilməzdik. Qarşımıza qoyduğumuz birinci məqsəd silahlarımızın müasir və dəqiq olmasıdır ki, insan itkiləri həddindən artıq az olsun. Buna görə Azərbaycan nəinki İsrail, digər ölkələrə də silah alışı üçün müraciət edib və ordusunu müasirləşdirir. Gəlin başqa tərəfə baxaq. Hər zaman Azərbaycanla dini qardaşlıq meyarını ortaya qoyan dövlət öz dini qardaşının düşmənini silahlandırdı, maddi cəhətdən hər cür köməklər etdi. İranın bizim nədən və necə istifadə etməyimiz, hansı silahları almağımız, düşmənlə hansı dildə danışmağımız onun işi deyil".




**Abuzər Əbilovun sözlərinə görə, İran güclü Azərbaycan və qüdrətli Azərbaycan ordusu görmək istəmir:**

"Ona görə Qafqazda dominantlıq istəyini ortaya qoyur. Sülhün bərqərar olmaması üçün İran tərəfdən hər zaman təxribatlar gözlənilməlidir. Çünki İran hazırki dönəmdə də Azərbaycanın əzəli torpaqları olan Zəngəzur mahalını tanımaq istəmir. Azərbaycanın bu mahalın ərazisindən Naxçıvana yol açılmasının əleyhinədir. Onların siyasətçilərinin dediyinə görə İran sərhədlərdəki dəyişikliyə biganə qalmayacaq. İranın Azərbaycanla uzun məsafəli sərhəd xətti var. Bu sərhəd xəttinin Azərbaycan tərəfindən olan hissəsində İrana hansısa bir təhlükə olmayıb. Lakin burada məkrli siyasət və istək var. Hazırki dönəmdə heç kim təminat verə bilməz ki, İran Ermənistana Rusiyaya verdiyi texnologiyalardan, silahlardan verməyib və ya verməyəcək. Fakt bundadır ki, artıq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması prosesi gedir. Lakin bizim gördüyümüz kimi hələ də İran bunu əleyhinədir və iki ölkə arasında uzun müddətli münaqişə olmasının tərəfdarıdır".

*Bəxtiyar CƏFƏRLİ*

# İran müxtəlif bəhanələrlə İrəvanla rəsmi Bakı münasibətlərinin pozulmasına çalışıb



**Sülhməramlıların Azərbaycan ərazisini tərk etməsi İranda birmənalı qarşılanmayıb. Bununla əlaqədar İranın gələcəkdə hansı addımlar atacağı bu gün hər kəsi düşündürən məqamlardandır.**

Mövzunu Herbiand.az-a şərh edən siyasi şərhçi Sədrəddin Soltan bildirib ki, İran Azərbaycan Ermənistan münasibətlərinin normallaşmasına hər zaman narahat olub. Onun sözlərinə görə, İran bu səbəbdən də müxtəlif bəhanələrlə İrəvanla rəsmi Bakı münasibətlərinin pozulmasına çalışıb:

"Son hadisələr - Azərbaycanın 4 kəndinin işğaldan azad edilməsi Tehranın ürəyincə olmayıb. Bu məsələdə həm də İran hakimiyyəti 4 kəndin yaxınlığından keçən Ermənistan Gürcüstan avtomobil yolunun Ermənistana bağlı olmasını istəyir".

**Ekspert İranın gələcəkdə Ermənistanın pozuculuq fəaliyyətini dəstəkləyə biləcəyini də istisna etmir:**

"İran Ermənistanın silahlanmasına yardım edə bilər. Ermənistanın Azərbaycana qarşı fəaliyyətinə kömək edə bilər. Bunlar olmadıqda, yəni rəsmi İrəvan tərəfindən anti-Azərbaycan addımları atılmadıqda İran hakimiyyəti təxribatçı və təhrikedici fəaliyyətlə məşğul ola bilər.

Eyni zamanda müxalif sayılan qüvvələri Azərbaycana, Türkiyəyə qarşı çıxış etməsinə dəstəkləyər".

**Ekspert hesab edir ki, İranın Azərbaycan-İsrail normal münasibətlərindən Ermənistana qarşı istifadə etməsi də mümkündür. Həmçinin terrorçuluq məsələsində, əgər Ermənistan belə bir addım atmaq istəyərsə, onlara yardım etməsi danılmazdır.**

"Çünki İranın Ermənistana bu sahələrdə yardım etməsinə dair çoxsaylı faktlar var", deyə ekspert bildirib.

*Elnurə İSAXAN*

# Döyüş tapşırıqlarının yerinə yetirilməsində rəşadət göstərdi...



**Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, eləcə də vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmiş Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 11 nəfər hərbi qulluqçusundan biri də ölümündən sonra bu mükafata layiq görülmüş kapitan Hüseynli Türkay Nizami oğludur.**

**Ölkə başçısının, həmçinin, 15 dekabr 2020-ci il tarixli və 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə kapitan Türkay Hüseynli (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə də təltif edilib.**

Kapitan Türkay Hüseynli 1990-cı il noyabrın 25-də Bakı şəhərində anadan olub. Hüseynovlar ailəsində böyüyüb boya-başa çatan və tərbiyə alan 4 övladdan (Sədi, Natəvan, Şahnabat və Türkay) biri, həmçinin, ailənin sonbeşiyi və vüqarı idi Türkay...

Orta təhsilini Daxili Qoşunların Birinci Qarabağ müharibəsində şəhid olmuş giziri Etibar Şirəliyevin adını daşıyan 274 saylı orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2009-2010-cu illərdə Daxili Qoşunların Naxçıvanda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Hələ uşaq yaşlarından hərbi xidmətə olan böyük həvəsi sayəsində Türkay müddətli hərbi xidmətini başa vurduqdan sonra elə həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsində qalaraq, 2012-ci ilin iyul ayınadək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə olan şərəfli borcunu yerinə yetirməyə başlayıb. Zabit kimi xidmətini davam etdirmək arzusunda olan silahdaşımız, 2012-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə daxil olub. 2014-cü ildə bu hərbi təhsil ocağını bitirərək "leytenant" hərbi rütbəsi alan Türkay zabit kimi ilk olaraq qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində fəaliyyətə başlayıb. 2019-cu ilin fevral ayınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində xidmət edib. Bir komandir kimi hər zaman yüksək hərbi intizamı, çalışqanlığı və biliyi sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağa müvəffəq olub. Yüksək döyüş hazırlığı, nümunəvi və qüsursuz xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla, eləcə də hərbi hissə komandanlığı tərəfindən bir sıra mükafatlarla təltif edilib.

T.Hüseynli xidmət etdiyi dövrdə iki dəfə - 2010-cu ilin sentyabr ayından 2011-ci ilin iyun ayınadək və 2019-cu ilin fevral ayından iyul ayınadək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında müvafiq olaraq "Gizir komando təməl kursu" və "Zabit komando təməl kursu"nda təhsilini davam etdirib.

Sonuncu kursu da müvəffəqiyyətlə başa vuran T.Hüseynli, 2019-cu ilin iyul ayından etibarən Daxili Qoşunların Sumqayıt şəhərindəki "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri vəzifəsində xidmət edib.

Vətən qarşısındakı müqəddəs borcunu şərəflə yerinə yetirən vətənpərvər hərbi qulluqçu kimi işğal olunan torpaqlarımızın azadlığı üçün döyüş meydanında düşmənlə savaşmaq və lazım gələrsə, bu amal uğrunda şəhidlik məqamına yüksəlmək Türkayın ən böyük arzusu olub.

Daxili Qoşunların "N" saylı hərbi hissəsində "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Qarabağ" ordeni və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmiş mayor Ələsgər Muxtarov (Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi qrup komandirinin mərdliyi və qorxmazlığı haqqında bu gün də ürək dolusu danışır:



**"44 gün davam edən Vətən müharibəsində dəstəmizin 6 nəfər hərbi qulluqçusu qəhrəmancasına vuruşaraq şəhid olub. Onlardan biri də qrup komandiri kapitan Türkay Hüseynlidir.**

**Bir komandir kimi fəaliyyətinə gəlincə, deyə bilərəm ki, istər nəzəri, istərsə də keçirilən bütün praktiki məşğələlərdə ən aktiv qrup komandirlərindən biri olub Türkay. Ümumilikdə isə qarşıya qoyulan bütün tapşırıqları vicdanla yerinə yetirib. Olduqca vətənpərvər, ləyaqətli hərbi qulluqçu kimi tabeliyində olan şəxsi heyət üçün hər zaman nümunə idi.**

**Yaxşı yadımdadır, döyüş öncəsi şəxsi heyətə tapşırıqlar verirdim. Bu vaxt Türkay böyük əzmlə: "Cənab mayor, ölmək var, dönmək yoxdur" - dedi və üzünü şəxsi heyətə tutub ardınca da: "Xüsusi təyinatlı illərlə yaşayır, lakin bir dəfə lazım olur, o da məhz Azərbaycanın ərazi bütövlüyü uğrundadırsa, sevə-sevə canımızdan keçməyə hazır olmalıyıq" - deyə qürur hissi ilə fikrini bitirdi.**

**Gözündə heç zaman qorxu hissi olmazdı. Elə döyüşə də gözünü qırpmadan atıldı. Onun qrupu döyüş tapşırıqlarının yerinə yetirilməsində rəşadət göstərdi...".**

**3 oktyabr 2020-ci il...** Cəbrayıl istiqamətində gedən döyüş Türkayın son döyüşü oldu. Komandiri olduğu qrupun şəxsi heyəti ilə birgə rayonun Böyük Mərcanlı kəndi ətrafındakı yüksəklikdə düşmənin 30 il ərzində möhkəmləndirilmiş birinci müdafiə xəttini darmadağın etdi. Ermənilərin xeyli sayda canlı qüvvəsi, o cümlədən, 8 tankı və 1 topu məhv oldu. Lakin düşmənin bu istiqamətdəki ikinci müdafiə səddinin yarılması uğrunda gedən şiddətli döyüşün gedişində erməni snayperinin açdığı atəş nəticəsində ağır yaralanan kapitan Türkay Hüseynli qəhrəmancasına şəhid oldu...

Bu döyüşdə cəsur komandirlə birgə onun tabeliyində vuruşan Daxili Qoşunların digər 2 nəfər igid hərbi qulluqçusu - çavuş Məmmədov Elvin Tərlan oğlu və MAXE əsgər Abasov Ayaz Nizami oğlu da qəhrəmanlıq göstərərək şəhid oldular.

Kapitan T.Hüseynli 2020-ci il oktyabrın 3-də Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub. Subay idi.

***Hər qarış torpağa göz bəbəyini,***
***İstəsələr verrəm, deyildir qəmim.***
***Silah götürməsəm də, köməyini,***
***Əsirgəyən deyil şair qələmim.***
***Bir yığın arzum var, qəlbimdə yenə,***
***Ata da bilmirəm bu həyəcanı.***
***Birinci yer verim hansı birinə,***
***Çiçəkli görməkdir Azərbaycanı.***

Bu misralar şəhid zabitimizin atası şair Nizami Elyanar Göyçəviyə məxsusdur. 8 kitabın müəllifi olan Nizami müəllim, eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, Türkay kimi şəhid oğullarımızla qürur duyduğunu deyir:

**"Türkayla sonuncu dəfə oktyabrın 2-də saat 18:20-də danışmışdıq. Özü zəng etmişdi. Dedim: "Milli Qəhrəman, necəsən?". Təvazökarlıq elədi, dedi: "Ata, hələ ona tezdir". Çox danışmadıq. Sonra "Problem yoxdur, yaxşıdır hər şey. Sağlıq-salamatçılıqdır. Özünüzdən muğayat olun. Narahat olma" - dedi və bundan sonra telefon əlaqəsi kəsildi...**

**Müharibəyə hazır vəziyyətdə getmişdilər. Yoldaşları ilə birgə xüsusi igidlik göstəriblər. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv ediblər. Texnikalarını ələ keçiriblər. Həmin döyüşdə oğlum Türkay Hüseynli şəhid oldu...**

**Şəhidlik onun üçün sanki bir amal, bir əqidə yolu idi. Hələ 3 il bundan öncə, Daxili Qoşunların Qubada yerləşən hərbi hissəsində xidmət edən dövrdə məzuniyyətə gəlmişdi. Gəlib yanımda, bir az aralı oturub, nədənsə "Şəhidlik məqamına yüksəlmək lazımdır" - deyə, bir fikir səsləndirdi. Düzü, başım qarışıq olduğundan, həmin vaxt bu sözü nə üçün deməsinə fikir vermədim. O da gördü ki, məşğulam, başım qarışıqdır, artıq heç nə danışmadı. Lakin indi başa düşürəm ki, sən demə, bu müqəddəs zirvəyə yüksəlmək onun həyat məsləyi olubmuş...**

**Qüsursuz və nümunəvi xidmətinə görə vaxtından əvvəl ona "kapitan" hərbi rütbəsi vermişdilər.**

**Hələ evlənməmişdi. Noyabrın 25-də 30 yaşı tamam oldu. Mənim oğlum sağdır. Ölməyib. Şəhidlər ölmürlər...".**

Türkayın ailə üzvlərinin, yaxın qohum və dostlarının, həmçinin, vaxtilə tabeliyində xidmət etmiş hərbçi yoldaşları - baş çavuş Musa Qədirov, çavuşlar Rasim Hacıyev, Kamal Məmmədli və Tahir Babayevin xatirələri əsasında "Real" televiziya kanalının, o cümlədən, "APA" TV və "Report.az" saytlarının "YouTube" internet portalı vasitəsilə yayımlanan xəbər proqramlarında "Şəhidlik xüsusi təyinatdır" və "Anası şəhid olduğu günə qədər müharibədə olduğunu bilmədi" adlı süjetlərdə qəhrəman zabitimizin gənc nəslə nümunə olan həyat və hərbi xidmət yolu barədə məlumatlar izləyicilərə təqdim edilib. Bundan əlavə, "Xalq qəzeti"nin 27 dekabr 2020-ci il tarixli sayında Əli Nəcəfxanlının müəllifi olduğu "Kapitan Türkayın rəşadət dastanı" başlıqlı məqaləsində şəhid silahdaşımızın həyat və döyüş yolu geniş işıqlandırılıb.

**Sonda şəhid atası Nizami Elyanar Göyçəvinin qeyd etdiyi kimi, yalnız onu deyə bilərik ki, bəli, həqiqətən də şəhidlər ölmürlər. Vətən uğrunda canını qurban verən Türkay kimi igid oğullarımızın əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.**

**Allah rəhmət eləsin!**

***Mayor Anar Əhmədov***
***DİN-in Daxili Qoşunlarının***
***"Əsgər" qəzetinin redaktoru***

Korrupsiya bütün bəşəriyyət üçün bəla hesab olunur və ona görə də bütün dünya ölkələri korrupsiyaya qarşı amansız mübarizə aparırlar. Dövlət idarəetmə sistemində şəffaflıq prinsipinin qorunması, büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsi, maliyyə intizamının gücləndirilməsi, eləcə də korrupsiya hallarına qarşı mübarizə tədbirlərinin genişləndirilməsi sahəsində son illər ölkəmizdə mühüm tədbirlər həyata keçirilib. Bu istiqamətdə ilk qətiyyətli addımlar ümummilli lider Heydər Əliyev tərəfindən atılıb və hüquqi demokratik dövlət quruculuğu ilə bir araya sığmayan, mütərəqqi inkişafa əngəl olan korrupsiyaya qarşı səmərəli mübarizə istiqamətində ardıcıl işlər görülüb. Korrupsiya cinayətlərinə qarşı barışmaz mübarizə Sovetlər İttifaqı məkanında da ilk olaraq məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda başlanılıb. Ulu öndər hələ sovet dövründə korrupsiya və rüşvətə qarşı, eləcə də onun yaratdığı inamsızlığa, haqsızlığa, pozulmuş insan hüquqlarına qarşı "Qoy Ədalət Zəfər Çalsın!" prinsipini irəli sürüb.

Ulu Öndər Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində korrupsiyaya və rüşvətə qarşı ardıcıl mübarizə aparan böyük şəxsiyyət, dahi dövlət xadimi olub. Hakimiyyətə birinci gəlişi zamanı sovet dövründə Ulu Öndərin rüşvətin bütün təzahür formalarına qarşı mübarizəsi tarixin qızıl fonduna daxil olub. Ulu öndərin 1993-cü ildə xalqın təkidi, tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra bu istiqamətdə daha qətiyyətli tədbirlər görülüb, "Cinayətkarlığa qarşı mübarizənin güclənməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli Fərman verməklə mütəşəkkil cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə sahəsində konkret istiqamətlər müəyyənlişdirilib, kəsərli qabaqlayıcı tədbirlər həyata keçirilib. Ümummilli lider Heydər Əliyev tərəfindən müxtəlif vaxtlarda verilmiş fərman və sərəncamların icrası istiqamətində görülən tədbirlər korrupsiyaya qarşı mübarizə işində çox mühüm rol oynayıb və 2000-ci ildən etibarən bu mübarizə tamamilə yeni müstəviyə qaldırılıb, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında" 8 iyun 2000-ci il tarixli fərmanı ilə Avropa məkanına sürətlə inteqrasiya olunan ölkəmizdə korrupsiyaya qarşı mübarizənin yeni mərhələsi başlayıb.

Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji kursun dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə, əzm və qətiyyətlə müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirilməsi nəticəsində ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edildi, sosial-iqtisadi inkişaf göstəricilərimiz əvvəlcədən prioritet olaraq qarşıya qoyulmuş hədlərə yüksəldi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hüquqa və ədalətə söykənən sivil cəmiyyət quruculuğunu uğurla davam etdirərək korrupsiyaya qarşı mübarizə tədbirlərinin miqyasını daha da genişləndirib. Korrupsiyanı hər bir dövlətin sosial-iqtisadi inkişafını əngəlləyən buxov hesab edən cənab İlham Əliyev dövlət başçısı kimi daha sağlam prinsiplər üzərində qurulmasına verdiyi önəm hər bir ölkə vətəndaşının ürəyincədir. Ölkəmizdə korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul olunmuş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir. Son illər korrupsiyaya qarşı həyata keçirilən mübarizə tədbirləri tədqirəlayiqdir. Azərbaycanda korrupsiyaya qarşı mübarizə məqsədilə təkmil qanunvericilik bazası yaradılıb, müvafiq ixtisaslaşmış dövlət qurumları formalaşdırılıb. Sevindirici haldır ki, gənc dövlət olmasına baxmayaraq, Azərbaycan Respublikası qısa müddət ərzində korrupsiyaya qarşı mübarizə sferasında beynəlxalq standartlar səviyyəsində çevik və sarsılmaz strategiya formacədən görülür, ən əsası isə milli mənafeyə xidmət edəcək cəhətləri əvvəlcədən hesablanılır. Dövlət Başçısının prokurorluq orqanlarına göstərdiyi yüksək etimadın növbəti təzahürü kimi 1 may 2020-ci ildə qanunverici orqan qarşısında namizədliyini irəli sürdüyü Baş prokurorun müavini-Baş İdarə rəisi Kamran Əliyevi Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsi ilə bağlı videoformatda qəbul edərkən bu mühüm dövlət təsisatına korrupsiyaya qarşı daha fəal iş aparılmasını, struktur və kadr islahatlarının həyata keçirilməsini tövsiyə etməsi, eləcə də aktual mövzu ətrafında vurğuladığı digər vacib məqamlar qurumun üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirməsi, habelə mübarizə tədbirlərinin daha da artırılması üçün ortaya qoyduğu siyasi iradənin göstəricisidir.

# Korrupsiyaya qarşı mübarizə cənab İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin əsas istiqamətini təşkil edir

fəaliyyətə başladığı ilk vaxtlardan bu ümumbəşəri bəlaya qarşı səmərəli tədbirlərə başlayıb, 13 yanvar 2004-cü il tarixdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu imzalayıb.

Son dövrlər ərzində dövlət səviyyəsində görülmüş məqsədyönlü işlər korrupsiya və rüşvətxorluğa qarşı fundamental mübarizəyə başlanılmasının, dövlət başçısı cənab İlham Əliyevin qeyd edilən neqativ təzahürlərin tam aradan qaldırılmasına yönəlmiş siyasi iradəsinin qətiyyətlə həyata keçirildiyinin göstəricisidir. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən çoxşaxəli Milli Fəaliyyət Planının təsdiq edilməsi bu istiqamətdə görülən böyük işlərdən biridir. Hazırda Milli Fəaliyyət Planının icrası ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə yönəldilmiş müvafiq işlər görülür.

Aparılan islahatlar ölkəmizin bütün sahələrində əsaslı dönüş yaradıb və korrupsiyaya eləcə də rüşvətxorluğa qarşı aparılan mübarizə islahatların bir növ məntiqi davamıdır. Dövlət başçısının korrupsiya və rüşvətxorluqla mübarizənin getdikcə sərtləşdirməsi və vətəndaş-məmur münasibətlərinin laşdırmış və onun səmərəli tətbiqinə nail olub.

Vətəndaşlara xidmət və sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tərkibində "Asan xidmət" mərkəzlərinin yaradılması mühüm antikorrupsiya tədbirlərindən biridir. Bu mərkəzlər vətəndaşlara qısa müddət ərzində vahid məkandan keyfiyyətli, rahat, heç bir korrupsiya və ya digər neqativ hallar olmadan dövlət xidmətlərini göstərir. Şübhəsiz, hər bir dövlət yeni yüzillikdə korrupsiyaya qarşı mübarizə istiqamətində mütərəqqi forma və metodlardan istifadə etməyə can atır. Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın sədri, akademik Ramiz Mehdiyev şəffaflığın təmin edilməsinin əhəmiyyətli element olduğunu xüsusi vurğulayaraq bildirmişdir ki, korrupsiyaya qarşı mübarizənin əsas vasitələrindən biri kimi səmərəli və çevik idarəçilik, iqtisadi inkişaf, sosial rifahın yüksəldilməsini, dövlət orqanlarına ictimai etimadın artırılmasını ehtiva edən şəffaflıq çıxış edir.

Azərbaycan Respublikasında yürüdülən islahat konsepsiyaları həyatiliyi, uğurlu nəticələri və davamlılığı ilə xarakterizə olunmaqla hər bir dövrün spesifik tələbləri nəzərə alınaraq mərhələlərə bölünür, onun mümkün nəticələri ön-

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları hər iki təşkilat tərəfindən təşkil olunan qiymətləndirmə missiyalarına cəlb olunaraq müxtəlif ölkələrin qiymətləndirilməsində ekspert qismində iştirak etmişlər. Müasir dövrdə müxtəlif ölkələrdə dövlət idarəçiliyinin səmərəliliyinin və şəffaflığının artırılmasında mühüm rol oynayan rəqəmsal xidmətlər və onlayn platformaların korrupsiya cinayətlərinin qarşısının alınmasında da effektiv istifadə edilməsinin nəzər alınaraq bu mübarizədə zamanın çağırışları ilə səsləşən informasiya texnologiyalarının yeni imkanlarından istifadənin genişləndirilməsi məqsədilə mütəmadi olaraq Baş İdarə əməkdaşlarının ixtisasartırma kurslarına cəlb edilməsi həyata keçiririlir. Bütün bu müsbət göstəricilər öz növbəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən üzərinə qoyulmuş vəzifələrin uğurla və daha səmərəli icra edilməsində mühüm rol oynamışdır.

***Həsən HƏSƏNLİ***
***Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun Hərbi təsisatlarda qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin prokuroru, ədliyyə mayoru***



# Astana Ermənistan-Azərbaycan sülh danışıqlarına ev sahibliyi edə bilərmi?

**Aprelin 15-də Ermənistana rəsmi səfər edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev İrəvana Qazaxıstanın İrəvana və Bakıya danışıqlar platforması təmin etməyə hazır olduğunu bildirib.**

Tokayevin səfərindən əvvəl müşahidə etdiyimiz kimi, Qazaxıstan Prezidentinin bir ay əvvəl Bakıya gəldiyini nəzərə alsaq, o özünü vasitəçi kimi təqdim etməyə çalışır. Təbii ki, Tokayevin istəyinin altında hər hansı bir geosiyasi dayağın olduğu şübhə doğurmur. Bu dayağın kim olduğu ancaq fərziyyə müstəvisində nəzərdən keçirilə bilər.

Aşağıdakı halı qeyd etmək lazımdır: Çin, Rusiya və Britaniya Qazaxıstan üzərində təsir gücünə malik üç dövlətdir, Türkiyənin isə Qazaxıstana müəyyən dərəcədə təsir etmək gücü var. Türkiyə öz yanaşmalarını Astananın üzv olduğu Türk Dövlətləri Təşkilatının məntiqi ilə irəli sürür. Beləliklə, Tokayevin vasitəçi hazırlığı bu dörd-lükdən kimə əsaslanır?

Əlbəttə, bəlkə də birinə əsaslanmır, lakin bütün hallarda əsaslanmaya bilməz, çünki əks halda Qazaxıstan danışıqlarda hər hansı irəliləyiş şəklində kiçik məqamı belə qeydə ala bilməz. Digər tərəfdən, Astananın praktiki olaraq öz təşəbbüsü ilə yuxarıda adı çəkilən dörd dövlətdən hər hansı birinin və ya bəlkə də bir neçəsinin istifadə edəcəyi məhsul formalaşdırmağa çalışdığını nəzərə almağa dəyər.

Demək istəyirik ki, Tokayev supergüclərdən hər hansı birinin himayəsinə malik olmaqla yox, bu supergüclərdə Qazaxıstanın bu addımına qarşı tələbat yarana biləcəyi gözləntisinə malik olmaqla, vasitəçilik platforması müraciəti təqdim edir. Qazaxıstanın addımı Astanaya bunun üzərində bilavasitə özü ilə bağlı olan geosiyasi və geoiqtisadi problemlərin həlli yollarını və ya bunlarla bağlı prosesi qurmağa imkan verəcək.

Eyni zamanda, Bakı və İrəvanda tərəflərin iqtisadi və mədəni əməkdaşlığı dərinləşdirdiyi açıqlanıb. Əlbəttə, bunlar dövlətlərarası yüksək səviyyəli səfərlərin müəyyən ritorika standartını təşkil edir və Astananın vasitəçilik platforması üçün müraciət etdiyi Ermənistan-Azərbaycan münaqişəsində nəyin dəyişəcəyindən asılı olmayaraq, dövlətlərarası münasibətlər sahəsində praktiki baxımdan nəyin inkişaf edəcəyini anlamaq vacibdir.

Ümumiyyətlə, mümkündür ki, Astana yalnız Tokayevin açıq-aşkar eyham vurduğu kanallar məsələsində maraqlı olacaq. Amma bu məsələ özü də kəskin geosiyasi məsələdir və praktiki olaraq qalan hər şeyi özünə “tabe edir”.

# Azərbaycanın növbəti strateji qələbəsi - Ermənistanın təmamilə cilovlaması mexanizmləri işə düşür




**Aprelin 19-da Azərbaycan və Ermənistanın demarkasiya və delimitasiya üzrə komissiyaları iclas keçiriblər və birgə bəyanat yayıblar.**

Bəyanat əslində bu barədədir ki, ilk dəfə olaraq Tavus-Qazax istiqamətində Ermənistan-Azərbaycan sərhədinin bir neçə yerində demarkasiya və delimitasiya aparılacaq və Ermənistanla Azərbaycan arasında demarkasiya aparılmış sərhəd olacaq. Komissiyaların bəyanatını bütövlükdə təkrarlamadan qısaca danışsaq, söhbət Azərbaycanın Ermənistanda son vaxtlar mövzusu qızğın müzakirə olunan işğal altındakı kəndlərini geri almalı olduğundan gedir.

İrəvan ilk dəfə olaraq Ermənistan-Azərbaycan sərhədində demarkasiya və delimitasiya aparılmış dövlət sərhədinin olacağını bəyan edir, bunu təhlükəsizliyin təminatı hesab edir. Tərəflər qeyd edirlər ki, süni ləngimə ilə deyil, zəruri sosial-iqtisadi problemlərin həllinə nail olmaq üçün proses ağlabatan müddətdə həyata keçirilməlidir. İrəvan vaxt udmağa çalışsa da, heç bir yol və ya infrastruktur layihəsini köçürə bilmədi. Bu səbəbdən, Azərbaycan həm strateji, həm də taktiki baxımdan qələbə qazandı.

Bu bir faktdır ki, dövlət sərhədi deyilən şey bu gün mövcud olan kövrək qlobal təhlükəsizlik mühitində əslində heç nədir. Bu gün qat-qat güclü dövlətlərin və güclərin dövlət sərhədləri pozulur, ona görə də dövlət sərhədi deyilən şeyin toxunulmazlığa zəmanət verdiyini düşünmək sadəlövhlükdür. Yəni Ermənistanın nə vaxtsa yenidən işğal niyyətli əməliyyatlara əl atacağı istisna edilə bilməz. Əsas məsələ işğal altında olan ərazilərimizin qaytarılması, dövlət sərhədinin müəyyənləşdirilməsi ilə bu təxribatçı planları minimallaşdırmaqdır.

Habelə əsas olan danışıq otaqları və ya iclas otaqları deyilən yerlərdə hansı müzakirələrin getməsi, hansı arqumentlər və əks-arqumentlər səslənməsidir və artıq faktdır ki, Azərbaycanın tələbi əsasında demarkasiya və delimitasiya ilə bağlı ilk addımlar atılan bir vəziyyət yaranıb.

Üstəlik, dövlət sərhədi deyilən şeyə yalnız həmin sektorlarda təhlükəsizliyin təminatı kimi baxmaq olar, hələlik söhbət bütün Ermənistan-Azərbaycan sərhədi boyunca nisbətən kiçik üç hissədən gedir. Heç biri olmadıqda isə bu sualların cavabları qeyri-müəyyən olur. Məsələn, Ermənistan kimi ölkənin gələcəkdə hansı siyasəti davam etdirəcəyi kimi suallar buna daxildir. Bu baxımdan, son nəticədə faydalılıq yalnız məzmunla müəyyən ediləməyəcək, Ermənistanın təmamilə cilovlaması mexanizmləri işə düşəcək.

***Aqil MƏMMƏDOV***



# Gürcüstan uğrunda kəskin mübarizə: Fransa Qərbə xəyanət edəcək?

**Artıq bir neçə gündür ki, qonşu Gürcüstanda vəziyyət gərginləşib, buna səbəb hakim çoxluğun xaricdən maliyyələşən təşkilat və şəxslərə aid olan “xarici agentlər” haqqında qanunun qəbuluna təşəbbüs göstərməsidir.**

Məlum olduğu kimi, belə bir qanun Rusiyada da fəaliyyət göstərir və təbii ki, bəzi başqa ölkələrdə də mövcuddur. Gürcüstan müxalifəti bu qanun layihəsinə etiraz edib və etiraz aksiyaları təşkil edib. Təbii ki, rəsmi Tbilisinin müxalifətin etiraz dalğasına səbəb ola biləcək addımı niyə atması sual doğurur. Bəlkə də cavab ondan ibarətdir ki, “Gürcü Arzusu” parlament seçkiləri öncəsi ölkədə öz mövqelərini və daxili nəzarətini gücləndirməyə çalışır.

Təbii ki, bu addım müxalifətin etiraz dalğası probleminə səbəb oldu, lakin hər halda Gürcüstan hökuməti hesab edir ki, bununla indi məşğul olmaq daha məqsədəuyğundur. Bütün hallarda Gürcüstanın idarəedici qüvvəsinin davranışı sübut edir ki, 2024-cü ildə parlament seçkiləri ərəfəsində Gürcüstan geosiyasi qarşıdurmanın təzyiqini getdikcə daha çox hiss edəcək. Bu, region üçün də vacib məsələdir.

Gürcüstanın vəziyyəti, onun bu və ya digər inkişafı regionun həyat fəaliyyətinə birbaşa təsir edəcək. Göründüyü kimi, Gürcüstan da Qərb-Rusiya qarşıdurmasının hədəfindədir, lakin mənzərə bu mənada daha fərqli, rəngarəng və çoxqatlıdır. Türkiyə və Azərbaycanın Gürcüstanla əhəmiyyətli, sıx müttəfiqlik münasibətləri mövcuddur. Rəsmi Tbilisi ilə bu əməkdaşlıq regiondankənar güclərin bu ölkəyə təsirini minimallaşdırır, onların Qafqazda öz mövqelərini möhkəmləndirməsinə imkan vermir.

Bu baxımdan, Gürcüstan Fransa üçün son dərəcə əhəmiyyətlidir. Fransa və Ermənistan Gürcüstan məsələsində məkrli planlara sahibdirlər. Nəzərə almaq lazımdır ki, dərinlik baxımından məhz bu tandem həm Azərbaycana, həm də daha geniş mənada Türkiyəyə qarşı mövqe tutub.

Britaniyanın şübhəsiz Bakı və Ankaranın tərəfində olacağını nəzərə alsaq, ABŞ-nin nə edəcəyi, Fransaya, yoxsa Türkiyə-Azərbaycan birliyinə dəstək verəcəyinə dair bir misal burada əsas olur. Digər mühüm sual isə Rusiyanın özünü necə mövqeləndirəcəyi və Çinin aktiv olmağa çalışıb-çalışmayacağıdır. Yeri gəlmişkən, qeyd edək ki, Makron Çin Prezidentinin köməyi ilə yayda Parisdə keçiriləcək Olimpiya Oyunları zamanı ümumi atəşkəslə bağlı razılığa gəlməyə çalışacağını açıqlayıb.

Makron yəqin ki, Fransaya gələcək Si Cinpindən Putinlə danışıqlar üçün vasitəçi olmağı xahiş edəcəyini nəzərdə tutur. Əlbəttə, söhbət Gürcüstandan yox, olimpiadadan gedir, lakin müzakirələr, şübhəsiz ki, əsas geosiyasi təbəqələrə toxunacaq, Gürcüstan isə bunlardan biridir və Makron orada Çinlə Rusiyanın dəstəyini qazanmağa çalışacaq.

***Asif CƏFƏROV***
***Ordu.az***

# İranın Brüsselə cavabı: Ermənistana “5 aprel” əvəzinə nə təklif edilir?



**Yaxın vaxtlarda iqtisadi əlaqələri dərinləşdirmək məqsədilə iki İran nümayəndə heyəti Ermənistana gedəcək. İranın Ermənistandakı səfiri Mehdi Sübhaninin sözlərinə görə, bunlardan biri İrəvanın maraqlı olduğu İranın Çabahar limanında Ermənistan üçün ərazi məsələsi ilə bağlı olacaq.**

Aprelin 16-da mətbuat konfransı keçirən İran səfiri bəyan edib ki, Ermənistan İran üçün Qara dənizə, İran isə Ermənistan üçün cənuba, Hindistana gedən “nəfəs borusu”dur. İran səfiri əslində İranın Ermənistanda iqtisadi maraqlarının artdığını açıqlayıb, sonuncunun Qərbə istiqamətlənməsinin az nəticə verəcəyini bildirib. Əlbəttə, bunların hansı dərəcədə praktikliyə malik olduğu aydın deyil, amma burada, bəlkə də ilk baxışdan görünməyən bir fonda vurğular olduqca diqqətəlayiqdir. Söhbət Brüsseldə baş tutan 5 aprel görüşündən, bunun məzmunundan və vurğularından gedir.

Əlbəttə, burada da böyük praktiklik məsələsi var, lakin tendensiyalar diqqətə layiqdir. Faktiki olaraq Ermənistan məsələsində ABŞ-Avropa görüşünə iqtisadi vurğulara İranın başqa iqtisadi vurğular şəkildə dolayı reaksiyası səslənir. Burada geosiyasəti qeyd etmək lazımdır. Brüssel formatının əsasında şübhəsiz ki, Mərkəzi Asiyadan Azərbaycan və Ermənistan vasitəsilə Türkiyə və Avropaya nəqliyyat əlaqələri halı dayanır.

İran praktikada Ermənistana cənub-şimal məntiqini təklif edir. Burada qeyd etmək lazımdır ki, Tehranın təklifi bəlkə də Fransa üçün cəlbedici görünür. Fransa Azərbaycan və Türkiyədən keçən yolu nəzərdə tutan Orta Dəhliz məntiqinə, yumşaq desək, həvəslə yanaşmır. Fransa üçün bu, bölgədə Azərbaycan və Türkiyədən asılılıq deməkdir. Ermənistan isə vəziyyəti “Sülh kəsişməsi” adlı qondarma ideya ilə idarə etməyə çalışır. Bu, çətin ki, əlçatan idarəetmə aləti olsun. Bununla belə bunun altında qərarların qəbul edilməsinin mümkün qədər böyük potensial formalaşdırmaq imperativi var. Yəni, Paşinyan sözügedən “ideyası” ilə özünə manevr imkanı təmin etməyə çalışır, bu düşüncə ilə həm Zəngəzur dəhlizini, həm də İranın təklif etdiyi layihəni optimallaşdırmağa çalışır.

İranın Ermənistan-Qərb razılaşmalarına hansı “həvəs”lə yanaşacağı, Fransa vasitəsilə “baryer” qurmağa cəhd edib-etməyəcəyi açıq sual olaraq qalır. Hər bir halda İran Ermənistana hələlik iqtisadi və siyasi baxımdan yumşaq təzyiq göstərir, onu istiqamətləndirməyə çalışır.

# İranın “qırmızı xətləri” haradadır?

**Ötən gün, Kanadanın xarici işlər naziri Kanada nümayəndəsinin Aİ-nin Ermənistandakı müşahidə missiyasına qoşulmasından məmnunluğunu ifadə etdi. Ötən il bununla bağlı müzakirələr və razılaşmalar olub.**

İrəvan və Brüssel Kanadanı cəlb etməyə razılaşıblar. Kanadanın xarici işlər naziri deyir: “(Ermənistana) ötənilki səfərimdən sonra (Kanadaya) qayıdarkən, əsas prioritet Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi yollarının, o cümlədən Ermənistanın ərazi bütövlüyünə hörmətin araşdırılması idi”.

Aİ-nin Ermənistandakı müşahidə missiyası isə bununla bağlı “təcili” qeyd paylaşıb: “Biz EUMA-da ilk kanadalı ekspert Aleksandr Qruşevskini salamlamağa şadıq. Kanada Aİ-nin Ermənistandakı missiyasını dəstəkləyən ilk üçüncü ölkədir”. “Kanada ilk üçüncü ölkədir” ifadəsi diqqətəlayiqdir. Bu o deməkdirmi ki, müşahidə missiyasına qoşulmaq üçün ya özləri Avropa İttifaqına və Ermənistana müraciət edən, ya da Avropa İttifaqı və Ermənistanın qoşulmaq üçün müraciət etdiyi başqa “üçüncü ölkələr” var?

Hər halda “ilk üçüncü ölkə” ifadəsi elə-belə işlədilməyib, əks halda bu, sadəcə salamlaşma olardı, vəssalam. Şübhə yoxdur ki, Kanadanın cəlb edilməsi siyasi yox, daha çox hərbi aktdır. Kanadanın cəlb edilməsinin missiyanı siyasi cəhətdən gücləndirdiyini təsəvvür etmək çətindir. Yumşaq desək, təsəvvür etmək çətindir ki, Kanada, məsələn, Aİ-nin Ermənistandakı missiyasına təşəbbüs göstərən və ona rəhbərlik edən Fransadan və ya digər əsas iştirakçı olan Almaniyadan daha çox çəkiyə malikdir.

Buna görə də belə qənaətə gəlmək olar ki, Kanadanın cəlb olunmasının məqsədi hələlik siyasi məzmun və ətraf mühit baxımından müşahidə missiyasının formatını dəyişmək məqsədi daşıyır. Avropa missiyası faktiki olaraq Avropa missiyasından daha böyük bir şeyə çevrilir. Bir neçə gün əvvəl Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Zaxarova Aİ-nin müşahidə missiyasının əslində NATO missiyası olduğunu açıqlayıb.

Kanadanın iştirakı ən azından bu qiymətləndirmənin lehinə bir arqumentə çevrilir. Sual yaranır ki, missiyanın siyasi formatında və kontekstində mümkün dəyişiklik nə deməkdir və məsələn, İranın buna münasibəti necə olacaq?



Faktiki olaraq, NATO məntiqini nəzərdə tutan müşahidə təşəbbüsü Ermənistan sərhədində məsuliyyət sahəsinə “daxil olarsa”, İran və Rusiya buna dözüm göstərməyəcəklər. Onlar əslində bu barədə açıq mətnlə danışırlar, geriyə yalnız sözügedən xəbərdarlıqları icra etmək qalır.

# İrandan Ermənistana açıq xəbərdarlıq



**İranın Ermənistandakı səfiri Mehdi Sübhani İrəvanda keçirdiyi mətbuat konfransında İranın regiondan kənar oyunçular dedikdə, nəyi nəzərdə tutduğuna aydınlıq gətirib, onların regionda təsdiq olunmasını yolverilməz hesab edib.**

Səfirin sözlərinə görə, regiondan kənar oyunçular dedikdə, ABŞ və bəzi Avropa ölkələri nəzərdə tutulur. Səfirin fikrincə, ABŞ və bəzi Avropa ölkələri Qafqaza gəlirlər və burada yaşayan xalqlar üçün qərarlar qəbul etməyə çalışırlar. İranın İsrailə cavabından sonra İran səfirinin mövzuya daha açıq olması təsadüfi deyil. İranın İsrailə cavabı əslində bir nömrəli beynəlxalq tədbir hadisəyə çevrilib və əslində bu günə qədər də belə qalır.

Yoxsa İran səfirinin bəyanatları sualı olan əhatə haqqında sübut verir və İsrail istiqamətində əməliyyatdan sonra İran Qafqazla bağlı Ermənistandakı səfiri vasitəsilə müəyyən siqnallar göndərir? Yeri gəlmişkən, səfir Sübhani bildirib ki, İran regionda gərginliyin artması tendensiyasından narazıdır. Səfirin sözlərinə görə, məsələlər sülh yolu ilə həll edilməlidir.

Əlbəttə, o, yüksəliş tendensiyasına kimin səbəb olduğunu açıqlamayıb, amma ola bilsin ki, Tehran bu tendensiyanın arxasında daha geniş geosiyasi prosesləri görür. Eyni zamanda, İran səfiri Qafqazdakı qeyri-regional aktorlara qarşı çıxış edəndə bu mənada müəyyən ziddiyyət yarana bilər ki, İranla ABŞ arasında kommunikasiya İsrailə vurulan zərbədə kifayət qədər nəzərəçarpan idi.

Üstəlik, bu mənada, bəlkə də Netanyahunun hakimiyyətini cilovlamaq üçün müəyyən fürsətin ABŞ administrasiyasının marağından irəli gəldiyini nəzərə alsaq, bəlkə də zərbəni koordinasiyalı və ya “birgə” zərbə kimi xarakterizə etmək olar. Lakin siyasət bir-biri ilə əlaqəli proseslərin panoraması olmaqla, ünsiyyətçilərin məntiqini rəhbər tutmur. Əgər İran və ABŞ Yaxın Şərq istiqamətində hər hansı bir məsələdə qismən əməkdaşlıq edə bilsələr, bu onların bütün digər regionlarda, hətta Yaxın Şərqin bütün məsələlərində belə davranışı olacağı demək deyil. Bu baxımdan İran-İsrail domenində baş verənlər aldatma olmamalıdır. İndiki dünyada qanunauyğunluqlar yoxdur, hamıya qarşı müharibə rejimi və gözlənilməzlik hökm sürməkdə davam edir. Yəni bir gün İran Ermənistanı başqa bir məntiqlə bombalaya, habelə ona qarşı Suriya nümunəsində olduğu kimi davrana bilərlər.

*Aqil MƏMMƏDOV*

# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 14 (1023) 26 aprel 2024-cü il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik


# Tabutuna sığmayan cəngavər

***Aprel şəhidi Dilsuz Qarayevə ithaf olunur***

Yaşanan hər ötən gün tarixə çevrilsə də, hamısı yadda qalan olmur. Gün var ki, unudulur, gün də var ki, əsrlər keçsə də unudulmaz olur. Belə günləri unudulmaz edən qəhrəmanlar, unudulmaz şəhidlərdir. Şəhidlər hər zaman minnətdarlıq duyğuları ilə yada salınır və dərin etiram bəslənilir.

Hər kəs dünyaya gələndə ona bir ömür payı bəxş olunur. Məncə, insanın ömür payına, bəxş edilən həyatına ən gözəl şəkildə "əlvida" deməyin, əbədiyyət adlı aşılmaz dağı aşmağın adıdır şəhid olmaq.

Candan keçən ən yüksək zirvəyə ucalan Aprel şəhidimizdən biri 23 dekabr 1990-cı ildə Ağcabədi rayonu Hindarx qəsəbəsində anadan olan Dilsuz Məmmədağa oğlu Qarayevdir.

Üç qardaşın kiçiyi olan Dilsuz ana babasının himayəsində əsl vətənpərvər ruhda böyümüşdür. Ailənin ayrılıq səbəbi ilə əlaqədar iki qardaş atası ilə qalsa da, Dilsuzu ana babasıgildə anası Cəvahir xanım əziyyətlə, atasız böyüdüb.

Ah-naləsi ürəkləri dağlayan Cəvahir ana indi oğlunun ayaq basdığı torpaqdan, daşdan imdad istəyir.

2009-cu ildə hərbi xidmətə başlayan Dilsuz xidməti bitsə də, gizir rütbəli kəşfiyyatçı kimi hərbi xidmətini davam etdirir. İştirak etdiyi əməliyyatlarda igidlik göstərərək, kəşfiyyatlarını uğurla yerinə yetirib.

Aylar, illər qanadlanıb, fəsillər ötüşüb ömürdən gedir. 2013-cü ildə Dilsuz isməti ilə seçilən Röya xanımla ailə həyatı qurur. 3 il xoşbəxt yaşasalar da nakam şəhidimizin həyatda sevinci göz yaşlarina çevrilən, gözü yollarda qalan Röyasına təsəlli ola biləcək bir nişanəsi qalmadı. Övlad sevinci yaşamadılar.

Sonuncu dəfə döyüşlərə qatılan 26 yaşlı kəşfiyyatçı Talış kəndində qəhrəmanlıq göstərərək bir neçə ermənini girov götürür. 3 aprel 2016-ci il döyüş zamanı düşmən tərəfindən rekatlə vurulur. Ömrünün iyirmi altıncı baharında, həyat bağçasının çiçəklənən çağında dünyaya vida edib, Şəhidlik zirvəsinə ucalır.

Gizir rütbəli kəsfiyyatçı ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medala layiq görülür.

Deyirlər cəbhədən gələn, üçrəngli bayrağa bükülən Şəhid tabutu açılmaz, amma pəhləvan cüssəli igid, tabutuna sığmayan Şəhidimiz üçün böyük tabut hazırlanır. Dilsuz Qarayev əvvəlki döyüşlərdə 20 şəhid verən Ağcabədi rayonunun on min əhalisi olan, doğulduğu Hindarx qəsəbəsində 4 aprel 2016-cı ildə torpağa tapşırılıb.



O aprel gecəsi canlarını torpağa fəda edən, Şəhidlik zirvəsinə yüksələn oğullar təkcə bir ailədən, bir ocaqdan qopan oğullar deyil artıq, onlar bütöv Azərbaycanın şəhid oğullarıdır!

# "Murov aslanı" mayor Rzayevin şanlı şəhadət yolu



**Mayor Rzayev İlkin Cəfər oğlu 1984-cü ildə Şərur rayonu Ələkli kəndində anadan olub. O, orta təhsilini 1990-1995-ci illərdə Suraxanı rayonu 270 nömrəli məktəbdə, 1995-2001-ci ildə isə Nizami rayonu 250 nömrəli məktəbdə alıb.**

İlkinin uşaq vaxtından hərbiyə və Vətənə sevgisi çox böyük olub. 1993-cü illərdə onun atası, əmisi I Qarabağ müharibəsində könüllü fəal iştirak ediblər. İlkin hələ kiçik ikən onun atasının Vətən haqqında dediyi sözlər daim qulağında cingildəmiş və içində hərbiyə qarşı sevgi oyatmışdır. Bu sevgi ilə də o, hərbi məktəbə sənəd vermişdir. Hətta o, hərbi məktəbə sənəd verən il sağlamlığının yaratdığı problemə görə qəbul ola bilmir, lakin içindəki böyük şövq buna mane olur. O, bir il sonra, 2002-ci ildə yenidən sənəd verir və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2006-cı ildə hərbi məktəbi bitirərək leytenant rütbəsi alır. 2006-2007-ci ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabitlik kursu keçir.

2009-cu ildə baş leytenant, 2013-cü ildə kapitan, 2017-ci ildə isə mayor rütbəsinə yüksəlir. İ.Rzayev hərbi xidməti zamanı daim yüksək hərbi bacarıqlarına görə fərqlənib. Sağ ikən aldığı 6 medal bunun göstəricisidir. "Silahlı Qüvvələrin yaranmasının 90 illiyi" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə 3-cü dərəcəli" medalı, "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı, "Silahlı Qüvvələrin yaranmasının 95 illiyi" medalı, "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı kimi nailiyyətləri onun necə zabit olduğunu göstərir. Onun son vəzifəsi "Döyüş hazırlığı bölmə rəisi" olub.

Xidməti zamanı daim çətin mövqelərdə olar və işini sevərək edərdi. İlkin üçün qorxu deyilən bir hiss yox idi. Silah yoldaşları, əsgərləri ilə hər zaman qardaş kimi olub. Hətta 2016-cı il Aprel döyüşləri zamanı məzuniyyətdə olsa da, döyüş yoldaşının şəhid olması xəbərini eşitdikdən sonra yenidən cəbhəyə yollanıb.

Şəhidimiz hər yerdə "Murov aslanı" deyə anılır. Yoldaşı Zeynəb xanım onun tarixçəsini belə danışır: "Aprel döyüşləri zamanı şəhid olan Elnur Əliyev onun yaxın silah yoldaşlarından idi. Bir dəfə onunla danışanda eşitdim ki, İlkinə "Murov aslanı" dedi. Soruşdum ki, İlkin, sənə niyə belə ad qoyublar? Gülümsündü və bu adın tarixçəsini danışdı: "Bir gün Murovda olanda qarşıma məqsəd qoydum ki, tabeliyimdə olan əsgərlərlə bu gecə ermənilərin olduğu istiqamətə gedib qum torbalarını doldurub ora tikəcəm və ermənilər qorxub geriyə çəkiləcək". İlkin, həqiqətən də, qorxmadan dediyinə əməl edib. Gecə ilə həmin əraziyə gedib orada səngər qazıb və qum torbaları qoyublar. Səhəri gün belə bir mənzərə ilə qarşılaşan düşmən qorxusundan geri çəkilmək məcburiyyətində qalıb. Silah yoldaşları ondan "Ay İlkin, heç qorxmadınmı bu hərəkəti edəndə?" - deyə soruşublar. İlkin isə "Əgər aslan sürüyə hücum etmək istəyirsə, çobanın ona nə edəcəyi aslan üçün önəmli deyil" deyib. Bu vaxtdan sonra ona həmişə "Murov aslanı" deyiblər. Komandirlərinin bu cür cəsurluğu və qorxmazlığı əsgərlərinə də həmişə dayaq olub.

Sanki İlkinin taleyi Murovda yazılıbmış. Onun təyinatı veriləndə ailəsi dədə-baba yurdu olan Naxçıvanı seçməyini istəyib. O isə bunu qəbul etməyib, Murovu seçib. Ailəsinin təkidinə qarşı cavabı belə olub: "Biz zabitlərin ayaq basdığı hər yer Vətənimizin torpağıdır. Fərqi yoxdur hara olur olsun". İlkinin işinə sevgisi onun ailəsinə olan sevgisindən belə ötədə imiş. Hətta övladı dünyaya gələndə bir neçə kəşfiyyatçı döyüş yoldaşının şəhid olduğuna görə evinə gəlib şadlıq keçirməyib. Komandiri İlkinə "Bəlkə, qızın olub deyə getmirsən evə?" deyib, İlkin isə "Xeyr, komandir, oğlum dünyaya gəlib, lakin indiki halda mən buranı tərk edə bilmərəm" deyib. Və oğlunu üç aydan sonra məzuniyyətdə görüb.

İlkin övladlarını da özü kimi vətənpərvər ruhda böyüdürmüş. Evdə övladlarına nağıl danışanda belə daim qəhrəmanlıqla bağlı nağıllar danışarmış, özünün və döyüş yoldaşlarının başına gələnləri nağıl formasında onlara söyləyərmiş. Qızının 1-ci sinfə hazırlıq qrupuna qeydiyyatını da özü etmişdi, çox sevinirdi onun məktəbə gedəcəyinə görə. Qızı Nur bir dəfə onun yaxasındakı, Ulu öndər Heydər Əliyevin şəkli olan sancaqdan istəyir. Söz verir ki, sən məktəbə gedəndə sənə də alacağam. Və elə qızına son aldığı hədiyyə də həmin yaxa sancağı olur.

İlkin son dəfə sentyabrın 27-si evdə olub, ailəsi ilə halallaşmaq üçün gəlib. O, evdən çıxanda həyat yoldaşına "Mənə bir şey olsa, dik dur. Biz zabitlər bu günü illərlə gözləmişik. Və bu gün artıq gəlib çatıb" - demişdi. Onun bir şüarı var imiş, daim deyirmiş ki, "İnsan anasının, atasının qatilini bəlkə unudar, ancaq şərəf və ləyaqətinin qatilini əsla unuda bilməz". Unutmadı da, bunu özünə amal etdi. Mənfur düşməndən qisasını aldı. Noyabrın 8-də həyat yoldaşının ad günündə evə qayıdacağını, qayıda bilməsə də, ona hədiyyə yollayacağını demişdi. Yoldaşı Zeynəb xanım deyir ki, noyabrın 8-i o, mənə həqiqətən hədiyyə verdi, Qələbəni mənə hədiyyə etdi.

İlkin müharibə başlanandan Murovdağ uğrunda döyüşlərə girir. Onun başçılığı altında hərbçilərimizin əks-hücumu nəticəsində Murovdağ işğaldan azad edilir. Hərbi hissənin döyüş hazırlığına rəhbərlik edən İlkin həmin döyüşlər əsnasında özünə tapşırılan istiqamətdə vəziyyəti tam ələ alıb, qəhrəmancasına vuruşur. Digər istiqamətdə də qızğın döyüşlərin getdiyi vaxtda İlkindən 2-3 km məsafə uzaqlıqda döyüşən əsgərlərinin mühasirəyə düşəcəyini, pis vəziyyətdə olduqlarını müşahidə məntəqəsindən görür. Və öz postunu təhvil verdikdən sonra silahını götürüb təkbaşına həmin yerə köməyə gedir. Bunu onun döyüş yoldaşları danışır. Hələ də bu günə kimi onların olduğu hərbi hissədə mayor Rzayevin igidliyindən və dediyi sözlərdən ağızdolusu danışılır. Əsgərləri deyirlər ki, o, bizim yanımıza yetişəndə zabit heyətindən heç kimin sağ qalmadığını gördü. "Mən bu postu ya özümüzdə saxlayacam, ya da elə burdaca qanımı tökəcəm. Amma sizin birinizi də düşmən gülləsinə qurban verməyəcəm" -deyir. Və silahına sarılaraq çoxsayda düşmən qüvvəsini məhv edir, 30-40 nəfərdən ibarət şəxsi heyəti isə xilas edir. Mayor Rzayevin döyüş bacarığından təlaşa düşən düşmən snayperçiləri həmin mövqeni dayanmadan atəşə tuturlar və sonda bir mərmi İlkinin boğazına tuş gəlir. Baş verən güclü qanaxmaya baxmayaraq, özündə güc toplayaraq yanına yetişən döyüş yoldaşlarına "Övladlarımdan muğayət olun. Komandanlıq üzrümü qəbul etsin. Döyüş tapşırığını sona kimi yerinə yetirə bilmədim... Vətən bağışlasın..." - deyərək şəhid kimi əbədiyyətə qovuşur. Onun şəhid olduğu yer sıldırımlar və çətin relyef olduğuna görə cənazəsini götürmək də asan olmur. Hətta onu götürməyə cəhd edən bir döyüş yoldaşı da snayperlə qolundan vurulur... Oktyabrın 2-də şəhidlik məqamına ucalsa da, üzərinə yağan qar altında qalır, sonra onu tapmaq mümkün olmur. Beləcə, 75 gün Murovun bəyaz qarına sarılıb uyuyur.

İlkin bir çox yerlərdə xidmət etmişdi, ancaq ən çox Murovu sevirdi. Tanrının ona yazdığı alın yazısına da Murovdağda yekun vurdu... Dekabr ayının 18-də II Şəhidlər Xiyabanında dəfn edilən "Murov Aslanı" mayor İlkin Rzayevdən vətənə əmanət iki balası - qızı Nur və oğlu Əli qaldı. Bir də onun öz canı və qanı bahasına yazdığı tarix!

İlkin ər meydanında, döyüş meydanında mərdliyi, igidliyi, qorxmazlığı ilə çiyinində daşıdığı ay-ulduzun haqqını verdi. Ömür yoldaşı Zeynəb xanım da onun dəfnində verilən bayrağı başına örpək bilib, şəhidinin ay və ulduzunu yenidən göylərə qaldırdı.

***Məleykə MİRZƏLİ***